

## Azərbaycan Türkiyədəki axtarış-xilasetmə qrupları üzrə ilk sıradadır

*Azərbaycan axtarış-xilasetmə qrupları ilə Türkiyədə zəlzələ nəticəsində insanların həyatını xilas etmək üçün ön cəbhədə olan ölkələr arasında ilk sıradadır.*
*"Unikal" xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə tvitter...*

Səh.2


# UNİKAL

№06 (2140) 10 fevral 2023-cü il Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




## Elman Rüstəmov xaricdəki biznesini böyüdür

### Sabiq baş bankirin ölkədən kənardakı gəlir qaynaqları ilə bağlı ilginc təfərrüatlar ortaya çıxıb

*Keçən il Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri postundan kənarlaşdırılan Elman Rüstəmov hazırda bütün diqqətini ölkədən kənardakı ailə biznesinin gücləndirilməsinə yönəldib. Bu barədə "Unikal" qəzetinə keçmiş baş bankirin ətrafındakı mənbələrdən bildirilib.Həmin məlumatlarda qeyd edilir ki, hazırda 71 yaşı olan Rüstəmov üçün AMB rəhbəri postundan uzaqlaşdırılması gözlənilməz olub. "27 il Mərkəzi Bank kimi strateji post tutan, ölkənin bank sektoruna və pul-kredit siyasətinə cavabdeh şəxs statusuna malik olan Elman müəllimin səlahiyyət müddəti 2020-ci...*

Səh.8



## Azərbaycana qarşı məkrli təxribat planı

Səh.9

## "Çoxmənzilli binaların zəlzələyə davamlılığı ciddi araşdırılmalıdır"



*Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O qardaş Türkiyədə baş verən zəlzələ zamanı binaların dağılması səbəbindən, paytaxtda olan yeni və köhnə çoxmənzilli binaların zəlzələyə nə qədər davamlı olmasından, fərdi yaşayış evlərinin qiymətinin necə dəyişməsindən...*

Səh.4

## Səlim Müslümovun 6 milyon manatlıq müamması



*Bu günlərdə belə məlum oldu ki, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun məhkəməsində ilginc məqam yaşanıb. Belə ki, 27 milyonluq mənimsəmə, israfetmə və rüşvətalma kimi cinayət əməllərində ittiham olunan Müslümov həmin məbləğin 20 milyonunu ödəyib.*

Səh.5

## Azərbaycandan Ərdoğana daha bir dəstək



*"Qardaş Türkiyədə yaşanan ağır faciədən Ərdoğan əleyhdarlarının, xüsusən də Qərbin Türkiyə və Azərbaycandakı şəbəkəsinin dərhal yararlanmaq cəhdləri açıq-aşkar ortadadır. Faciənin dəhşətlərini yaşamış insanların emosional ovqatına siyasi məzmun verərək, onun Ərdoğana qarşı kütləvi...*

Səh.9

# "Pula nifrət edirəm" - Mətanət Əsədova



***"Mən bir insanı ya istəyirəm, ya da istəmirəm. Mənə zorla heç nə qəbul etdirmək olmaz. Nə qədər ki, səhnədəyəm, nəfəsim gedib-gəlir, şükür Allaha. Amma elə bir hal da baş verə bilər ki, oxumaqdan bu gün gedə bilərəm. Ürəyimin başında elə insanlar var ki, onların adı yazılıb. Allaha hər zaman yalvarıram ki, məni şərdən, böhtandan hifs et, necəyəmsə o cür də insanları qarşıma çıxart. Halbuki təsadüf hallarda qarşıma yaxşı insanlar çıxır".***

"Unikal" xəbər verir ki, bunu moderator.az-a açıqlamasında tanınmış müğənni, əməkdar artist Mətanət Əsədova deyib.

Müğənni qazandığı pulu ən çox xərclədiyi yerləri də açıqlayıb. "Mən varlı, imkanlı bir kişinin qızı olmuşam. Amma bu gün hamıdan kasıb, hamıdan da dövlətliyəm. Çünki Allah mənə pak, təmiz ürək verib. Pula nifrət edirəm. Ac qalmayım, kiməsə əl açmayım və ətrafımda olan insanlara "yox" deməyim deyə pulumun olmasını istəyirəm. Pulu ən çox geyimə, parfümə xərcləyirəm. Mənə milyonları verib, canımı xəstə salacaqsansa, mən də kənardan durub pula baxacağamsa, o pulu istəmirəm. Çünki bir dəfə səsim batdı, o biri dünyanı görüb gəldim" deyə müğənni bildirib.

Mətanət Əsədova bir müddət televiziyalardan uzaq durduğunu da açıqlayıb. "Televiziyalardan bir az uzaq durmuşdum. Ara-sıra, sevib bəyəndiyim, seçdiyim aparıcıların verilişlərinə gedirəm. Aparıcının apardığı veriliş onun evi sayılır. Evinə gələn hər bir qonağı necə qarşılayırsa, efirinə gələn aparıcını da elə qarşılamalıdır. Elə aparıcı var ki, musiqidən bixəbərdir, kənardır. Adı var ki, aparıcıdır. O müğənnini elə bəh-bəhlə tərifləyir ki! Müğənni var ki, heç oxuya bilmir, onu danışdırmaq olar. Amma oxuya bilən müğənnini oxutdurmurlar. O vaxt ümumumiyyətlə müğənnilər efirlərə danışmağa yox, oxumağa gəliblər. Yaxşı olardı ki, buna bütün aparıcılar əməl etsinlər" deyə müğənni bildirib.

# "Bu, iki dövlətin Allah tərəfindən sınağıdır" - Afaq Başirqızı

***"Artıq xalqım, millətim neçə gündür ki, nə gecə, nə gündüz bilir. Qardaşını, xalqı fikirləşir. Bilmir, nə etsin, necə etsin ki, təki Türkiyəni sakitləşdirsin, dərdini azacıq da olsa, unutdursun. Əl tutur, özü gedir, yerin dərinliyindən xilas edir. Hər bir cansızın canımızdan can apardı, Türkiyəm, hər bir dağıntın üstümüzə yağdı, amma möhkəmik, möhkəm olacağıq".***

Bu sözləri Xalq artisti Afaq Başirqızı sosial şəbəkə hesabında yazıb. Türkiyədə baş verən zəlzələdən bəhs edən aktrisa sözlərinə belə davam edib:

"Bu, yəqin ki, iki dövlət bir millətin Allah tərəfindən sınağıdır. Sənə möhkəmlik arzulayıram. Xalqım həmişə səninlədir. Xalqıma qurban olum, necə böyük xalqdır. Allah bu çətinlikdən bizi tezliklə qurtarsın. Azərbaycan səninlədir, Türkiyə! Azərbaycan səninlə fəxr edir, Türkiyə! Allah bir də belə sınağı göstərməsin. Amin...".





## "Bizim köhnə binalar sökülməsin"

***Əməkdar artist Sevda Ələkbərzadə köhnə binaların sökülməyini istəmir.***

"" olay-a istinadən xəbər verir ki, bu barədə sənətçi feysbukda məlumat paylaşıb. İfaçı köhnə tikililərin yenilərdən dözümlü olduğunu vurğulayıb:

"Məncə, bizim köhnə binalar heç sökülməsin. Yenə sığınacaq bir yer var. Daşı daş, sementi sement, divarın qalınlığına söz ola bilməz, bünövrəsi bünövrə. İllərlə tikilən binalar, bir günə yox...".

## "Köhnə geyimlərini qoymağa yer tapmayanlar..." - Vüsalə Əlizadə

***Aparıcı Vüsalə Əlizadə Türkiyədə zəlzələdən xəsarət alanlara yardım göndərənlərlə bağlı paylaşım edib.***



Aparıcı ikinci əl geyim göndərənləri qınayıb. O, ziyafət geyiminin şəklini yayımlayaraq bunları yazıb: "Məni qınamayın, amma hansı məssəbə qulluq edəsən ki, bu psixologiyada olasan. Köhnə, cırıq, yırtıq geyimlərini qoymağa yer tapmayanlar.... Evi təmizləyim, boşalsın fürsətdir, ad olsun ki, nəsə etdim - psixologiyasından çıxın. Bu, yardım deyil. Ondansa dilinizdən dualar göndərin".

## "Köhnə binalar sökülməsin, sığınacaq yerimizdir" - Sevda Ələkbərzadə

***Əməkdar artist Sevda Ələkbərzadə köhnə binaların sökülməsinə qarşı çıxıb.***

Müğənni bununla bağlı sosial şəbəkədə paylaşım edib. O bildirib ki, köhnə tikililər yenilərdən daha möhkəmdir: "Məncə bizim köhnə binalar heç sökülməsin, yenə sığınacaq bir yer var. Daşı daş, sementi sement, divarın qalınlığına söz ola bilməz, bünövrəsi bünövrə. İllərlə tikilən binalardır, bir günə yox".



## Vardanyan getdi, bəs sonra?...

Siyasi şərhçi: "Moskvanın bundan sonrakı planları üçün kimləri ortaya atacağı bəlli deyil, bu risk qaldığına görə Bakı Kremllə danışıqları davam etdirəcək"

***"Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə çirkli niyyətlə gələrək özünü "dövlət naziri" elan edən Ruben Vardanyan Qarabağdan qaçıb. Ehtimal edilir ki, o, Rusiya sülhməramlılarına məxsus olan yük avtomobilinin baqajında Rusiya hərbçilərinin utilizasiya üçün nəzərdə tutulmuş çirkli paltarlarının arasında gizlənərək Ermənistana aparılıb. Oradan, deyəsən, biryolluq Moskvaya gedib - hər halda informasiya axını Vardanyanın geri qayıtmaq niyyətində olmadığı üzərində qurulub".***

Bu fikirləri siyasi şərhçi Aqşin Kərimov səsləndirib. O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Ruben Vardanyan layihəsinin çirkli məqsədlərə xidmət etdiyini göstərib: "Qeyri-leqal yollarla varlanan milyarderin Qarabağda peyda olması Azərbaycanın nüfuzlu ermənilərlə təmas qurmaq qabiliyyətini zədələmək məqsədi daşıyırdı. Qarabağdakı qızıl yataqlarının qanunsuz istismarı ilə müşayiət edilən bu plan Azərbaycan üçün təhdid xarakterində idi. Ona görə də İlham Əliyev Vardanyanın Azərbaycan ərazilərindən çıxıb getməsində qətiyyət və iradə nümayiş etdirirdi".

A.Kərimov onu da bildirib ki, Vardanyanın Moskvaya gedişi barədə məlumatlar həqiqəti əks etdirirsə (buna şübhə etməyə əsas azdır), deyə bilərik ki, Azərbaycan və Rusiya Vardanyanla bağlı mübahisəni qapadıblar:

"Lakin Moskvanın bundan sonrakı planları üçün kimləri ortaya atacağı bəlli deyil, bu risk qaldığına görə Bakı Kremllə danışıqları davam etdirəcək. Bundan sonra Azərbaycan faydalı yataqların qeyri-qanuni istismarına qarşı hərəkətini "post-Vardanyan dövrü" üzərində quracaq. Üstəgəl, Bakının Qarabağdakı ermənilərlə təmasındakı maneə aradan qalxmış kimi görünür.

Əgər Qarabağdakı ermənilər Moskva ilə Bakı arasında ikili oyun oynamağa davam etsələr və Ermənistan bundan istifadə etsə, Azərbaycanın cavabından barıt qoxusu gələcək. İstənilən halda, Vardanyanın qaçışı 10 Noyabr Bəyanatının müddəalarının reallaşmasını sürətləndirə biləcək tezisləri inkişaf etdirəcək".

## Daha bir MTN generalının əmlakları geri qaytarıldı

***Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) general-mayoru Sübahir Qurbanovun müsadirə olunan əmlaklarının bir hissəsi geri qaytarılıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bununla bağlı Ali Məhkəmənin sədri Ramiz Rzayev tərəfindən göndərilmiş təqdimata həmin məhkəmədə baxılaraq qərar qəbul olunub.

Hakim İlkin Rəsəbovun sədrliyi ilə keçirilən iclasda Sübahir Qurbanova məxsus iki ədəd mənzil və Masallının Qızılavar kəndində yerləşən yanacaqdoldurma məntəqəsinin sabiq MTN generalına qaytarılması məqbul sayılıb. Onun Novxanıda 1 hektardan çox torpaq sahəsi və üzərindəki tikili, eyni qəsəbədə yerləşən bağ evi, Digah qəsəbəsində yerləşən torpaq sahəsi və yanacaq doldurma məntəqəsi üzərindəki müsadirə qərarı qüvvədə qalıb.

Qeyd edək ki, sabiq general 14 il həbs cəzası alsa da, 2020-ci ildə əfv olunaraq azadlığa çıxıb.

# Elman Rüstəmov xaricdəki biznesini böyüdür

## Sabiq baş bankirin ölkədən kənardakı gəlir qaynaqları ilə bağlı ilginc təfərrüatlar ortaya çıxıb

***Keçən il Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri postundan kənarlaşdırılan Elman Rüstəmov hazırda bütün diqqətini ölkədən kənardakı ailə biznesinin gücləndirilməsinə yönəldib. Bu barədə "Unikal" qəzetinə keçmiş baş bankirin ətrafındakı mənbələrdən bildirilib.Həmin məlumatlarda qeyd edilir ki, hazırda 71 yaşı olan Rüstəmov üçün AMB rəhbəri postundan uzaqlaşdırılması gözlənilməz olub. "27 il Mərkəzi Bank kimi strateji post tutan, ölkənin bank sektoruna və pul-kredit siyasətinə cavabdeh şəxs statusuna malik olan Elman müəllimin səlahiyyət müddəti 2020-ci ildə növbəti 5 il üçün uzadılmışdı. Lakin 2022-ci ilin aprelində o, səlahiyyət müddətinin başa çatmasına 3 il qalmış postundan kənarlaşdırıldı" deyən qaynağımız xatırladıb ki, Rüstəmov daha sonra Baş nazirin müşaviri kimi formal vəzifəyə təyin edilib.***



"Son illərdə yalnız vəzifəsini deyil, bir çox hallarda azadlığını itirən sabiq məmurların başlarına gələnlərin müqabilində Elman müəllimin Mərkəzi Bank rəhbərliyindən uzaqlaşdırılaraq Baş nazirin müşaviri postuna gətirilməsi əslində onun mükafatlandırılması kimi qiymətləndirilə bilər" deyən mənbənin sözlərinə görə, hazırda Rüstəmovun bütün diqqəti Azərbaycandan kənardakı biznesini genişləndirməyə yönəlib.

"Mükafatlandırma məsələsini təsadüfi vurğulamıram. Hökumətdə yüksək vəzifə tutaraq külli miqdarda var-dövlət toplayan sabiq məmurların bir çoxu korrupsiya ittihamı ilə həbsə atılır, yaxud iqtidar komandasından tamamilə uzaqlaşdırılır, üstəlik, belə məmurların vəzifədə olduğu müddətdə ayrı-ayrı postlara yerləşdirdiyi adamlar da işdən kənarlaşdırılır. Belə bir ortamda Elman Rüstəmovun çoxsaylı tənqidlərdən sonra Mərkəzi Bankın rəhbəri vəzifəsindən kənarlaşdırılması təbiidir. Təbii olmayan isə onun kimi yüksək vəzifə tutanların, belə iri məmurlarla yanaşı yaxın ətraflarının işlərini itirdiyi halda Elman müəllimin gözlənilməz şəkildə Baş nazirin müşaviri vəzifəsinə təyinat alması, beləliklə, yalnız karyerasını deyil, ailə sərvətini də qoruyub saxlamaq şansı qazanmasıdır" deyən mənbəmiz sabiq baş bankirin hazırda Avropadakı ailə biznesini gücləndirmək, üstəlik, genişləndirmək üçün ciddi çalışmalara başladığına diqqət çəkib.

"Əslində Elman müəllimin Mərkəzi Bank rəhbəri kimi çox böyük səhvləri olmuşdu. Bu səhvlər dövlətə on milyardlarla manata başa gəlmişdi. Onun ən böyük xətası isə 2014-2015-ci illərdə səmərəsizliyini bilə-bilə manatın məzənnəsini saxlamaq üçün 3-4 ay ərzində Mərkəzi Bankın 12 milyard dollarlıq ehtiyatını göyə sovurmasıdır. Bu addım Rüstəmovun baş verən iqtisadi prosesləri vaxtında və düzgün qiymətləndirməməsinin göstəricisi idi. Elman müəllimin məlum addımının səbəbləri uzun müddət müzakirə mövzusu olmaqla yanaşı, hətta onun devalvasiyalardan öncə külli miqdarda, bəzi mənbələr 700 milyon dollar məbləğində vəsaiti özünə yaxın banklar vasitəsilə xaricə çıxartdığına dair iddiaların yayılmasına gətirib çıxarmışdı.

İstənilən halda, Rüstəmov qısa vaxtda Azərbaycanda məmur biznesinin aparıcı simalarından birinə çevrilmişdi. Belə ki, biznes sektorundakı mənbələr keçmiş baş bankirin onunla birgə "Səba" Şirkətlər Qrupuna və "Bakı Sığorta" şirkətlərinə nəzarət etdiyini bildirirdilər.

Vaxtilə o da qeyd edilirdi ki, "Səba" Şirkətlər Qrupuna "Səba" ASC, "Biləsuvar Aqro", "Qarabağ Taxıl" şirkətləri, eləcədə "Gündəlik" ərzaq dükanları şəbəkəsi daxildir. Şirkətlər qrupu ölkədəki ən böyük quş əti, kərə yağı istehsalçıları arasında göstərilir, sabiq baş bankirin şirkətlər qrupunda 37,5 faiz paya malik olduğu deyilirdi. "Aydın məsələdir ki, bu pay birbaşa Rüstəmovun adında deyil. Bunun üçün o, doğma xalası oğlu Hidayət Quliyevin adından istifadə edir" deyə yerli media vurğulayırdı.

Həmçinin, qeyd edilirdi ki, Rüstəmov bir sıra məşhur avtomobil istehsalçılarının Azərbaycandakı distribütorlarının da sahibliyində iştirakçıdır. Bura ilk növbədə Yaponiyanın məşhur "Mitsubishi", "Subaru", "Toyota" avtomobilləri aiddir. Bu markalar satış sayına görə ölkənin avtoparkında birinci onluqda yer alır. Onların əsas müştəriləri yerli və xarici şirkətlər, səfirliklərdir.

"Unikal"a daxil olan məlumatlarda isə sabiq baş bankirin tikinti, ictimai iaşə sahələrində, bundan başqa, Türkiyə və Gürcüstanın daşınmaz əmlak sektorunda da biznes fəaliyyətləri olduğu deyilir. Məşhur "Planet" şadlıq sarayının bütünlüklə, eyni şadlıq evinin yaxınlığında ucaldılan çoxmərtəbəli yaşayış binasının isə 50 faizinin E.Rüstəmova məxsus olduğu bildirilir. Bundan başqa, "Neon" restoranının arxasında tikilməkdə olan böyük şadlıq sarayının da Elman müəllimin ailə biznesinə daxil olduğu barədə xəbərlər dolaşır.

Bəzi iddialara görə, AMB rəhbəri postundan uzaqlaşdırılan Baş nazirin indiki müşaviri Avropanın müxtəlif ölkələrində biznes şəbəkəsinə malikdir. Sözügedən şəbəkəyə isə Elman müəllimin qızı Günel Rüstəmovanın rəhbərlik etdiyi bildirilir.

"Elman müəllim AMB İdarə Heyətinin sədri olarkən əsasən Britaniya paytaxtında və adı çəkilən ölkənin aparıcı şəhərlərində biznesə malik idi. Hazırda isə onun Çex Respublikası, Monteneqro, Sloveniya kimi ölkələrin turizm sektoruna iri məbləğli investisiyaların yatırdığı məlumdur" deyən qaynaqların sözlərinə görə bu investisiyalara da sabiq baş bankirin qızı nəzarət edir.

***Sənan Mirzə***

# Azərbaycana qarşı məkrli təxribat planı

***Ötən gün bir sıra media səhifələrində Ermənistanın Azərbaycana qarşı növbəti təxribat planlaşdırdığına dair informasiya yayıldı. Diplomatik mənbələrə istinadən yayılan məlumata görə, təxribatın hazırlanması və həyata keçirilməsində İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) 30 hərbçisindən ibarət təxribat qrupu iştirak edəcək.***

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ermənistan və İranın istənilən təxribatına layiqli cavab verməyə hazırdır: "Biz bunu son illərdə dəfələrlə sübut etmişik. Bizim cavabımız Ermənistan və onu dəstəkləyən digər qüvvələri ağrılı-acılı nəticələrə gətirib çıxarıb. Odur ki, Ermənistan tərəfinin Türkiyədə baş verən zəlzələ ilə bağlı fürsətdən istifadə edib Azərbaycana qarşı təxribat törətməsini istisna etmirəm. Bu təxribatlar Ermənistanda ötən ilin sentyabr ayında baş verənlərdən daha ağır nəticələrə səbəb olacaq. Düşmən tərəfi anlamalıdır ki, istənilən təxribat Ermənistan tərəfinin şəxsi heyət, texnika və ərazi itkiləri ilə müşayiət olunacaq. İran İslam Respublikası olsa da, ilk dəfə deyil ki, Azərbaycana qarşı olan proseslərdə iştirak edir. Biz bunu Azərbaycanın müstəqillik əldə etdiyi 90-cı illərdən bugünə qədər müşahidə etməkdəyik. Birinci Qarabağ müharibəsində də, Vətən müharibəsində də Ermənistanın təchizatında İran mühüm rol oynayıb. Xüsusilə Vətən müharibəsində İran əlindən gələn köməyi Ermənistana edib. Qoşunlarımızın hərəkəti və yerdəyişməsi barəsində əldə etdiyi məlumatları, radiolokasiya vasitələrinin qeydə aldığı kadrları Ermənistan tərəfinə verən məhz İran rejimi olub. Son günlərdə baş verən proseslər, həmçinin İranın səfirliyimizə qarşı törətdiyi terror aktları bu gün də fərqli formada davam etməkdədir. Burada bizi təəccübləndirəcək yeni detal yoxdur", - deyə o qeyd edib.

Politoloq Elxan Şahinoğlu "Ermənistan, İran və ya Rusiya Türkiyədəki zəlzələdən istifadə edib Azərbaycana qarşı hansısa təxribat törədə bilərlərmi?" sualının indi gündəmə gəlməsinin səbəbi barədə fikirlərini bölüşüb. Onun sözlərinə görə, bu sual ona görə aktuallaşıb ki, Ermənistanda bir neçə başıpozuq "Türkiyədəki ağır vəziyyətdən istifadə edərək Azərbaycanın mövqelərinə hücum edək" fikrini səsləndirib: "Yaramazlar anlamırlar ki, Azərbaycan Ermənistanı təkbaşına da cəzalandıra bilər. Digər tərəfdən Azərbaycana Rusiya və ya İran istiqamətindən hər hansı təhlükə yaranarsa, Türkiyə ordusu mövcud çətinliklərə rəğmən, seyrçi qalmayacaq. Türkiyədə ağır fəsadları olan zəlzələ baş versə də ordu yerindədir. Bunu Rusiya və İranda anlamamış deyillər, bir neçə başıpozuq erməni isə "xəyallarından" çıxış edir. Türkiyədə zəlzələdən bir neçə saat sonra Azərbaycan ordusunun Kəlbəcər istiqamətində hərbi təlimləri keçirildi. Bu təxribat barədə düşünənlərə mesaj idi ki, bizi sınamağı ağıllarından keçirməsinlər".

Milli Məclisin deputatı Ceyhun Məmmədov Azərbaycana qarşı təxribat hücumunun hazırlandığı haqda məlumata münasibət bildirərkən deyib ki, İran Tehrandakı səfirliyimizə edilən xain silahlı hücumla bağlı Azərbaycana məlumat vermədi, amma bu gün isə İranın növbəti təxribatlara hazırlaşdığını görürük. O qeyd edib ki, bu günlərdə Azərbaycanın Xarici İşlər Nazirliyinin Tehrandakı səfirliyimizə silahlı hücum barədə geniş açıqlama verdi və bu açıqlamaya İran cavab vermədi: "İran Ermənistanla iş birliyi və tixribatları ilə heç nəyə nail ola bilməyəcək. Bu daha çox İrana zərbə olacaq. Səfirliyimizə edilən xain hücum da İranın əleyhinə işlədi və İran ifşa olundu. İran bu məsələlərə son qoymalıdır. İran bilməlidir ki, bütün təxribatların qarşısı qətiyyətlə alınacaq və onun əleyhinə çevrilmiş proses olacaq".

C.Məmmədov İranı Azərbaycan əleyhinə təbliğata və təxribatlara son qoymağa çağırıb: "İran müsəlman ölkəsi olan Azərbaycanla münasibətlərini gücləndirməlidir. Belə addımlarla və təxribatlarla Azərbaycanın mövqeyini və siyasətini dəyişməyəcək. İranın addımları regionda ciddi qarşıdurmalara və münaqişələrə səbəb ola bilər. İran bilməlidir ki, Türkiyə Azərbaycanın yanındadır. Digər müttəfiqlərimiz də hər zaman Azərbaycanın yanında olacaq. Azərbaycan ordusu istənilən təxribatın qarşısını almağa hazırdır".

Politoloq Qabil Hüseynli isə bizimlə söhbətində deyib ki, İran və Ermənistanın Azərbaycana qarşı hərbi təxribata hazırlaşmasına dair informasiyanın yayılması təsadüfi deyil. Onun qənaətincə, bu məkrli niyyətin arxasında İran dayanır: "Belə bir addım atsalar, bu, onların hər ikisi üçün çox ağır nəticələrlə bitə bilər. İran hələ 29 yanvar tarixindəki dron zərbələrindən sonra özünə gələ bilməyib. Üstəlik, İrana qarşı beynəlxalq koalisiya formalaşdırılır. Bu iş ABŞ və İsrailin rəhbərliyi ilə aparılır. Səudiyyə Ərəbistanı və digər ərəb ölkələri də bu prosesdə iştirak etmək istəyirlər. İranın təxribata əl atması öz ölüm aktını imzalaması kimi bir addım olacaq. Azərbaycan Ordusu hər cür təxribata cavab vermək imkanındadır. Qardaşımız Türkiyə ağır sınaqlarla üz-üzə qalsa da, ayaq üstədir və bu məsələlərdə çox həssasdır. Əgər Ermənistan belə riyakar addımlar atacaqsa, bu prosesin onlar üçün də çox ağır nəticələri olacaq. Ən böyük zərbə isə İrana dəyəcək, çünki ona qarşı yaradılan "Anti-İran" koalisiyası tez bir zamanda hərəkətə keçə bilər və İrandakı 3 mindən çox hərbi obyektlər, siyasi ofislər zərbəyə məruz qala bilər. Bununla da molla rejimi tarixin zibilliyinə atıla bilər".



Qabil Hüseynli onu da qeyd edib ki, təxribat planında söhbət İran ordusunun bütün potensialından getmir: "Söhbət İranın Cənubi Azərbaycanda formalaşdırdığı təxribatçı qruplaşmalardan gedir. İran hazırda o halda deyil ki, indi bütün resurslarını və hərbi potensialını Azərbaycana qarşı çevirsin. Bu, İran üçün intihar kimi bir addım ola bilər. Belə bir addım atarsa, İranı yer üzündən silərlər. Bizim üçün təhlükəli bir şey ola bilər ki, İran manqurtlaşmış, milli şüuru yerində olmayan bəzi güneyli soydaşlarımızdan istifadə edər və onların əlinə silah verərək bizim üstümüzə göndərə bilər. İran bu istiqamətdə çalışır və təxribatçı qrupları Ermənistanla birlikdə formalaşdırır. Düşünürəm ki, nə İranın, nə də Ermənistanın potensialı Azərbaycana hücum etməyə kifayət etməyəcək. Bu, onların fikrindən keçsə də, reallaşdıra bilməzlər", - deyə o bildirib.

***Murad İbrahimli***

---



## Azərbaycandan Ərdoğana daha bir dəstək

### Elxan Şükürlü: "O, Türkiyənin bu faciəsindən yararlanmaq istəyənləri növbəti dəfə məyus edərək, ölkəsinə uzanan yad əlləri kəsəcək"

***"Qardaş Türkiyədə yaşanan ağır faciədən Ərdoğan əleyhdarlarının, xüsusən də Qərbin Türkiyə və Azərbaycandakı şəbəkəsinin dərhal yararlanmaq cəhdləri açıq-aşkar ortadadır. Faciənin dəhşətlərini yaşamış insanların emosional ovqatına siyasi məzmun verərək, onun Ərdoğana qarşı kütləvi qəzəb və nifrətə çevrilməsi üçün hər şey edilir! Məqsəd də odur ki, Türkiyədəki 14 may seçkilərinə qədər Ərdoğan ciddi siyasi nüfuz və səs itkisinə məruz qalsın, yenidən prezident seçilməsin".***

"Unikal" xəbər verir ki, bu fikirləri Ədalət Partiyasının sədri müavini Elxan Şükürlü irəli sürüb. O bildirib ki, hazırda Ukrayna üzərində Rusiya ilə taqətdənsalma savaşı aparan Qərb üçün Türkiyədəki 14 may seçkiləri fövqəladə dərəcədə əhəmiyyət daşıyır. Onlar hesab edirlər ki, Ərdoğan yenidən prezident seçilməzsə və onu Qərbin müdafiə etdiyi şəxs əvəzləyərsə, bu, 2016-cı ildən etibarən daha açıq şəkildə müşahidə olunan Rusiya-Türkiyə əməkdaşlığına da son verə, beləliklə, Rusiyaya qarşı Qara dəniz hövzəsi - Cənubi Qafqaz - Mərkəzi Asiya xətti boyunca yeni bir cəbhə açıla bilər:

"Şübhəsiz ki, bunu Rusiya da bilir və indi Putin üçün Ərdoğanın hakimiyyətdə qorunub saxlanması öz hakimiyyətinin qorunub saxlanması qədər önəmlidir. Bir qədər də dəqiq desək, 2024-cü ildə Rusiya, Ukrayna və ABŞ-da gözlənilən prezident seçkilərinin qədəri daha çox elə Türkiyədəki may seçkilərində yazılacaq. Bu baxımdan, qarşıdakı 3 ayda Türkiyəyə qarşı Qərbin basqılarının xeyli artacağı, hətta bunun ölkə daxilində davamlı kütləvi iğtişaşlara, toqquşma və etirazlara çevrilməsi üçün cəhdlərə çevriləcəyi proqnozlaşdırılsa da, eyni zamanda anti-Qərb bloku, xüsusən də Çin və Rusiya tərəfindən Ərdoğan hakimiyyətinin sonadək dəstəklənəcəyini də gözləyə bilərik".

Partiya yetkilisi onu da qeyd edib ki, son 20 ildəki fəaliyyətiylə Ərdoğan hamıya sübut edib ki, o, xaraktercə təhlükə qarşısında özünü itirməyən, toparlanan, səfərbər olunan və kritik situasiyalarda daha çevik, effektli davranan, böhranı imkana çevirməyi bacaran Liderdir: "İnşallah, o, qardaş Türkiyənin bu faciəsindən yararlanmaq istəyənləri növbəti dəfə məyus edərək, ölkəsinə uzanan yad əlləri kəsəcək, bütün fitnəkarlıqların qarşısını alacaq və öz xalqını arxasında yenidən toparlamaqla, onu yeni hədəflərə götürməyi bacaracaq. Biz bu savaşda da, seçimdə də bir əlində "Quran", dilində azan, Türkiyəni yenidən quran və Ümmətini birləşdirərək, onu daha təhlükəsiz bir dünyaya aparmağa çalışan Ərdoğanın yanında, cinahındayıq".

***Hüseyn***

# İlham Əliyevdən Şarovski ilə bağlı sərəncam



***Azərbaycanda teatr sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Aleksandr Yakovleviç Şarovski "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

# Xilasedicilərimiz 44 nəfəri dağıntılar altından sağ çıxarıb

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər.***

Bu barədə "Unikal"a FHN-dən məlumat verilib. Belə ki, FHN-in xilasedicilərі zəlzələdən ciddi zərər görmüş Kahramanmaraş rayonu ərazisində həyata keçirdikləri axtarış-xilasetmə əməliyyatları nəticəsində dağıntılar altından 9-u uşaq olmaqla 44 nəfəri sağ, 164 nəfərin isə cəsədini çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

Əməliyyatların gedişi barədə əlavə məlumat veriləcək.

# Azərbaycan Türkiyədəki axtarış-xilasetmə qrupları üzrə ilk sıradadır

***Azərbaycan axtarış-xilasetmə qrupları ilə Türkiyədə zəlzələ nəticəsində insanların həyatını xilas etmək üçün ön cəbhədə olan ölkələr arasında ilk sıradadır.***

"Unikal" xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə tvitter hesabında bildirib.

O, dünyanın bir neçə ölkəsindən olan axtarış-xilasetmə qrupları ilə bağlı statistikanı əks etdirən infoqrafika paylaşıb. İnfoqrafikaya əsasən, 725 nəfərlik xilasedici ilə Azərbaycan ilk sıradadır.

Xatırladaq ki, fevralın 6-da Türkiyədə səhər saatlarında 7.7 bal gücündə zəlzələ baş verib. Dərinliyi 7 kilometr olduğu müəyyən edilən zəlzələ Hatay, Qaziantep, Kilis, Osmaniye, Malatya, Adıyaman, Şanlıurfa, Diyarbəkir, Adana və Kahramanmaraş vilayətlərində ciddi dağıntılara səbəb olub. Xeyli sayda insan həlak olub və yaralanıb.

Zəlzələnin ilk günü - fevralın 6-da Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri Türkiyəyə yola düşüb. Fevralın 8-də isə Fövqəladə Hallar Nazirliyinin daha 227 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə göndərilib. Bunlardan əlavə mobil səhra hospitalı və 41 nəfərdən ibarət peşəkar tibbi və qeyri-tibbi heyət, insanların yerləşdirilməsi üçün çadırlar, ədyal və qızdırıcılar, habelə mobil səhra hospitalı üçün 3 ədəd konteyner yola salınıb. Daha sonra yardım məqsədilə 13 ədəd xüsusi təyinatlı nəqliyyat vasitəsi də Türkiyə yola salınıb. Eyni zamanda Birinci xanım Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardım edir. Faciədən zərər çəkmiş şəxslər üçün Heydər Əliyev Fondu tərəfindən 36 ton humanitar yardım göndərilib. Bakıda, Gəncədə, Naxçıvanda Türkiyəyə yardım məqsədilə toplama məntəqələri yaradılıb. Azərbaycan vətəndaşları könüllü şəkildə bu yardım məntəqələrinə gələrək yardımlarını edirlər.

# Baş nazirdən Dövlət Vergi Xidməti ilə bağlı qərar

***Dövlət Vergi Xidmətinin vəzifəli şəxslərinin geyim formalarının yeni tələbləri müəyyən edilib.***



"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Qərar "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 539 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 12 noyabr tarixli 1875 nömrəli Fərmanla edilmiş dəyişikliklərlə bağlı hazırlanıb.

Qeyd olunmuş Fərmanla Azərbaycan Respublikasının vergi xidməti orqanlarının ali rəis heyəti üçün nəzərdə tutulan vəzifələrin və bu vəzifələrə uyğun xüsusi rütbələrin yeni siyahısı təsdiq edilib.

Eyni zamanda, son dəyişikliklərlə Dövlət Vergi Xidmətinin Vəzifəli Şəxslərinin Geyim Formalarının yeni tələbləri müəyyən edilib. Dəyişikliklər əsasən aksessuarların rəngini, tanınma nişanlarının təsvirini əhatə edib.

# Sahibə Qafarova Cənubi Afrikada

***Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Cənubi Afrika Respublikasına rəsmi səfərə gəlib.***

"Unikal"ın məlumatına görə, nümayəndə heyətinin tərkibinə Cənubi Afrika Respublikası ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri - Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Hesablayıcı komissiyasının sədri Eldar Quliyev və digər rəsmi şəxslər daxildirlər.

Keyptaun Beynəlxalq hava limanında nümayəndə heyətini Cənubi Afrika Respublikası Milli Assambleyasının vitse-spikeri David Ntombela, Azərbaycanın bu ölkədəki müvəqqəti işlər vəkili Yamin Cəfərov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarova Cənubi Afrika Respublikasının



parlamentində olacaq, ölkə rəsmiləri ilə bir sıra görüşlər keçirəcək.

# Ordu "Həyəcan" siqnalı ilə ayağa qaldırıldı

***Bu ilin döyüş hazırlığı planına əsasən Azərbaycan Ordusunun qoşun növləri və hərbi hissələrində yeni tədris dövrü ilə əlaqədar keçirilən praktiki məşğələlər uğurla icra olunur.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Plana uyğun olaraq "Həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılan bölmələr təyin olunmuş



yerlərdə atəş mövqelərini tutublar.

Raket və Artilleriya Qoşunları, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrinin bölmələri qarşılıqlı əlaqədə döyüş tapşırıqlarının icrası üzrə fəaliyyətləri praktiki yerinə yetiriblər.

Qoşunların döyüşə hazırolma qabiliyyətinin daha da inkişafı, eləcə də bölmələrin dayanıqlı, fasiləsiz və operativ idarəedilməsinin təmin edilməsi məqsədilə keçirilən məşğələlərdə hərbi qulluqçular yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Türkiyədə zəlzələ qurbanlarının sayı 16 mini ötdü

***Türkiyədə zəlzələ nəticəsində ölənlərin sayı 16 170 nəfərə çatıb.***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Osmaniyədə çıxışında deyib. Onun sözlərinə görə, təbii fəlakət nəticəsində 64 194 nəfər yaralanıb.




# Türkiyədəki zəlzələnin vurduğu ziyan hesablandı - 4 milyarddan çox

***Türkiyədə zəlzələlərin ümumi zərəri hesablanıb.***

"Unikal" xəbər verir ki, İHH humanitar təşkilatının koordinatoru Fitch agentliyinin açıqladığına görə ölkəyə 4 milyard dollardan çox ziyan dəyib. "Türkiyə zəlzələ qurbanlarını təmin etməyi bacarır, lakin xarici yardıma daha çox ehtiyac olacaq" - İHH humanitar təşkilatı qeyd edib.

# Rusiya XİN-in xüsusi nümayəndəsi Paşinyanla görüşüb

***Rusiya Xarici İşlər Nazirliyinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndəsi İqor Xovayev Ermənistanda səfərdədir.***

O, Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb. Görüşdə üçtərəfli bəyanatların icrası müzakirə edilib, Laçın yolunda vəziyyətə dair fikir mübadiləsi aparıblar. Onlar həmçinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasını müzakirə ediblər. Qeyd edək ki, İqor Xovayev sonuncu dəfə ötən ilin noyabr ayında Ermənistanda səfərdə olub.

## ELAN

**"RSP LOGİSTİCS" MMC-yə verilmiş "çoxtərəfli BNF icazəsi - 00270 saylı (CEMT) itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Azərbaycan səfirliyinə hücum: İran istintaqın gedişi barədə məlumat vermir

***Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu zamanı yaralanan mühafizə xidmətinin əməkdaşları Vasif Tağıyev və Mahir İmanovun vəziyyəti yaxşıdır.***



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə "Report"a açıqlamasında deyib ki, yaralıların müalicəsi xəstəxanada davam etdirilir.

Terror hücumu ilə bağlı istintaqın gedişinə gəlincə, nazirlik sözçüsü bildirib ki, rəsmi Tehran bununla bağlı Azərbaycan tərəfinə heç bir məlumat vermir.

"İstintaqın gedişi ilə bağlı bizdə hansısa informasiya yoxdur", - XİN rəsmisi vurğulayıb.

Xatırladaq ki, yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə terror hücumu olub. Terroru törədən şəxs "Kalaşnikov" markalı avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisi Orxan Əsgərovu qətlə yetirib. Səfirliyin iki nəfər mühafizə əməkdaşı da hücumun qarşısını alarkən yaralanıblar.

Yanvarın 29-da Azərbaycanın İrandakı səfirliyinin əməkdaşları və ailə üzvləri Bakıya təxliyə olunub. Eyni zamanda diplomatik nümayəndəliyin fəaliyyəti tam dayandırılıb.

Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu nəticəsində şəhid olan O.Əsgərov yanvarın 30-da İkinci Şəhidlər xiyabanında dəfn edilib.

# Tehran-İrəvan təlimləri keçiriləcək? - İran səfirindən müəmmalı açıqlama

***Lazım gələrsə, Ermənistan və İranın hərbi qurumlarının rəhbərləri müəyyən tədbirlərin keçirilməsini elan edəcəklər.***

Bunu İranın Ermənistandakı səfiri Abbas Bədaşxan Zohuri ikitərəfli münasibətlərə həsr olunmuş elmi konfransda deyib. O, Sputnik Ermənistan-ın "birgə hərbi təlimlər keçirilə bilərmi?" sualını cavablandırarkən konkret cavab verə bilməyəcəyinə işarə vurub.



Tehran İrəvanla birgə döyüşəcəkmi? - İran səfiri sualdan yayındıBu mövzuda müvafiq təkliflərin İrəvanda, yoxsa Tehranda verilib-verilməməsi ilə bağlı sualı şərh edən diplomat qeyd edib ki, Ermənistan və İranın hərbi sahədə qəbul etdiyi bütün qərarlara hörmətlə yanaşır. İstənilən qərar və ya hərəkətin öz məntiqi nəticəsi var. "Əgər bu məsələ ölkənin mənafeyindən irəli gəlirsə, o zaman müvafiq nazirlik, indiki halda cənab Suren Papikyan bunu səsləndirəcək. Təbii ki, eyni şey İranın yüksək hərbi rəhbərliyinə də aiddir. Nəyi edib, nələri etməmək barədə onların özləri açıqlama verməlidirlər", - səfir suala müəmmalı cavab verib.

İranın Ermənistandakı səfiri Abbas Bədaşxan Zohuri jurnalistlərə açıqlamasında onu da deyib ki, İran hər iki ölkəyə münaqişə məsələlərini müstəsna olaraq danışıqlar yolu ilə həll etməyi tövsiyə edir. Diplomatdan İrəvanla Bakı arasında yeni hərbi əməliyyatların baş verəcəyi təqdirdə Tehranın hansı tədbirləri görəcəyi ilə bağlı suala gəldikdə Zohuri cavab verib ki, Ermənistan və İran bütün münaqişələrin və problemlərin dialoq yolu ilə həll edilməsində maraqlıdır. Səfir İrəvanın avropalı müşahidəçiləri Azərbaycanla sərhədə daşımasından narahat olduğunu da gizlətməyib. Diplomat region ölkələri arasında mövcud olan bütün problemlərin yalnız bu dövlətlərin özünün iştirakı ilə həll edilməli olduğunu vurğulayıb.

O qeyd edib ki, region ölkələri özləri dialoq əsasında təhlükəsizliyi təmin edə bilərlər: "Əlbəttə ki, bölgədə təhlükəsizliyin və sülhün təmin olunması baxımından digər dövlətlər də öz töhfələrini verə bilərlər. Amma istənilən halda sülh və təhlükəsizlik o zaman gələcək ki, problemlər region ölkələri tərəfindən həll olunacaq".

Xatırladaq ki, bir neçə gün öncə Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan sensasiyalı açıqlama verməşdi. O, sentyabr döyüşlərinə toxunarkən iddia edib ki, onlarda olan kəşfiyyat məlumatlarına görə rəsmi Bakı Ermənistanın təxribatlarına cavab olaraq daha genişmiqyaslı hərbi əməliyyatlar reallaşdırmalıymış. Guya İranın hərbi ritorikası toqquşmaların daha da genişlənməsinin qarşısını alıb.

# Hərbi həkimlərimiz Kahramanmaraşda 10 nəfəri əməliyyat etdi

***Azərbaycanın hərbi həkimləri Kahramanmaraşda 10 nəfəri əməliyyat edib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Türkiyəyə ezam olunmuş Azərbaycan Ordusunun hərbi tibb personalı Kahramanmaraşda fəaliyyətini davam etdirir.

Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən hərbi həkimlərimiz qardaş ölkədə ümumilikdə 10 cərrahi əməliyyat icra ediblər.

Bundan başqa, tibb personalımız baş vermiş zəlzələdən zərərçəkən 98 nəfəri müayinə edərək onlara ambulator yardım göstəriblər.

# Lavrov, Mirzoyan və Bayramovun görüşü planlaşdırılır

***Rusiya, Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşünün təşkili üzərində iş gedir.***



"Unikal" xəbər verir ki, bu barədə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov mətbuat konfransında bildirib.

"Biz mövcud stabilləşdirmə tədbirləri çərçivəsində gələcək hərəkət üçün platformalar və formatın təmin edilməsi baxımından əlimizdə olan resurslardan maksimum istifadə etmək istəyirik", - Ryabkov bildirib.

Xatırladaq ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ötən gün bəyan etmişdi ki, erməni tərəfi üçtərəfli görüşə hazırdır.

***Gülayə Mecid***

# "95 ölkədən yardım təklifi almışıq" - Çavuşoğlu

***"Biz 95 ölkədən və 16 beynəlxalq təşkilatdan yardım təklifi almışıq".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Nazirlər Şurasının 26-cı iclasında deyib.

Onun sözlərinə görə, hazırda zəlzələdən əziyyət çəkən bölgələrdə 56 ölkədən 6 min 479 heyət var. Daha 19 ölkənin komandası 24 saat ərzində ölkəmizdə olacaq.

***Gülayə Mecid***

# Şuşada Vaqif poeziya günləri keçiriləcək

***Bu il Şuşada türk dünyasının tanınmış şair və yazıçılarının iştirakı ilə ədəbi-bədii tədbirlər keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu, Baş nazir Əli Əsədovun təsdiqlədiyi Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planında yer alıb. Festivalın iyul-sentyabr ayında keçiriləcəyi planlaşdırılır.

Həmçinin Vaqif poeziya günləri çərçivəsində TÜRKSOY-a üzv ölkələrin şairlərinin görüşü, Mir Möhsün Nəvvab Qarabağinin 190 illiyinə həsr olunmuş sərginin təşkili və "Mir Möhsün Nəvvab Qarabağinin silah kolleksiyası" adlı kitab-kataloqun təqdimatı, "Məclisi-üns" ədəbi məclisi təşkil ediləcək.

Tədbirlərin icraçı orqanları Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir.

# "Xarıbülbül" Festivalının keçiriləcəyi vaxt məlum oldu

***Baş nazir Əli Əsədov "Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncamda "Xarıbülbül" VI Beynəlxalq Folklor Festivalının keçiriləcəyi tarix məlum olub.

Belə ki, festival bu ilin may ayında keçiriləcək.

# Azərbaycan hərbçiləri Türkiyəyə yardım göndərdi

***Azərbaycan Müdafiə Nazirliyi Türkiyəyə yardım göndərib.***

Bu barədə "Unikal"a nazirlikdən məlumat verilib. Qeyd olunub ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə həyata keçirilən yardım tədbirləri davam edir.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun hərbi qulluqçuları və onların ailə üzvlərinin qardaş ölkədə zərərçəkənlərə yardım etmələri üçün müvafiq hərbi hissələrdə toplama məntəqələri yaradılıb.

Hərbi qulluqçular və onların ailə üzvləri tərəfindən könüllü şəkildə gətirilən geyimlər və ərzaq məhsulları təyin olunmuş məntəqələrdə toplanıb, çeşidlənərək bağlamalara yığıldıqdan sonra yük avtomobili vasitəsilə Türkiyəyə yola salınıb.

## İTV-yə maliyyə yardımı ayırıldı

***Prezident İlham Əliyev Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkətinə maliyyə dəstəyi göstərilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, 2024-cü ildə Almaniyada keçiriləcək futbol üzrə Avropa çempionatının yayım hüququnu Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin əldə etməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkətinə 940 500,0 avronun manat ekvivalentində vəsait ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

## Dövlət Komitəsində görüş keçirildi

***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Laçın rayonunun Alxaslı kənd icması nümayəndələri ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki işğaldan azad edilmiş ərazilərdə, Prezident İlham Əliyevin tapşırığı əsasında, genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, məcburi köçkünlərin geri dönüşünə hazırlıq görüldüyü bildirilib. Bu məqsədlə icrasına başlanılmış Dövlət Proqramının Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsinə, həmin ərazilərdə əhalinin dayanıqlı məskunlaşmasına və məşğulluğunun təmin edilməsinə xidmət etdiyi diqqətə çatdırılıb.

Hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunduqlarını deyən Alxaslı kənd sakinləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıq bildiriblər. Onlar Laçın rayonunun, Zabux, Sus və digər kəndlərin, həmçinin Alxaslı kəndinin də tezliklə bərpa olunacağına əminliklərini ifadə edərək, hamılıqla doğma yurda qayıdıb, orada daimi yaşamaq istədiklərini bildiriblər. Diqqətə çatdırılıb ki, həm gənc, həm də yaşlı nəsil Alxaslının dirçəldilməsi üçün əlindən gələni etməyə hazırdır.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev görüş iştirakçılarını maraqlandıran məsələlərə aydınlıq gətirib, onların suallarını cavablandırıb.

# "Çoxmənzilli binaların zəlzələyə davamlılığı ciddi araşdırılmalıdır"

## Ramil Osmanlı: "Bütün hallarda köhnə çoxmənzilli binaların əksəriyyəti Türkiyədəki kimi zəlzələyə davamlı və dayanıqlı deyil"

***Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O qardaş Türkiyədə baş verən zəlzələ zamanı binaların dağılması səbəbindən, paytaxtda olan yeni və köhnə çoxmənzilli binaların zəlzələyə nə qədər davamlı olmasından, fərdi yaşayış evlərinin qiymətinin necə dəyişməsindən və başqa məsələlərdən danışıb.***

***-Qardaş Türkiyədə zəlzələdən sonra xeyli bina uçub. Bundan sonra həmin binaların keyfiyyətsiz tikilməsi ilə bağlı fikirlər səsləndirildi. Siz də həmin görüntüləri görmüsünüz. Necə düşünürsüz, xeyli sayda binanın uçması keyfiyyətsiz tikinti ilə bağlı ola bilərmi?***

-Türkiyədə baş verən zəlzələnin rixteş şkalası üzrə gücü 7,4 baldan yuxarı olub. Bəzi ərazilərdə isə 7,8-8 bala yaxınlaşıb. Zəlzələnin maqnitudası həddən artıq böyükdür. Zəlzələ baş verən ərazilər seysmik baxımdan olduqca mürəkkəb relyefə malikdir. Bu baxımdan, həmin ərazilərdə olan dağıntıları tamamilə binaların keyfiyyəti məsələsinə bağlamaq düzgün deyil. Doğrudur, keyfiyyətlə bağlı problemlərin də olduğunu görmək olar. Amma Azərbaycanda olduğu kimi Türkiyədə də ən böyük problem çoxmənzilli binaların bir-birinə həddindən artıq yaxın tikilməsidir. Eyni zamanda, binaların şəhərdaxili yolların, piyada səkilərinin, yol çiyinlərinin üzərində yerləşməsi görünür. Bu hallar zəlzələ baş verən zaman ciddi insan tələfatı ilə nəticələnən mənfi halların baş verməsinə gətirib çıxarır. Süjetlərdən də görünür ki, bina uçur və özü ilə bərabər bir neçə binanın da dağılmasına səbəb olur. Hesab edirəm ki, bu binaların tikintisinə ciddi nəzarət olunmalı idi. Binaların məsafələri bir-birinə bu qədər yaxın olmalı deyildi. Keyfiyyət problemi də var. Amma əsas məsələ yerləşmə ilə bağlıdır.

***-Zəlzələdən sonra ölkəmizdə də yeni tikilən binaların zəlzələyə davamlı olub-olmaması məsələsi gündəmə gəldi. Sizcə son illər tikilən binalar zəlzələyə nə qədər davamlıdır?***

-Ölkəmizdə inşa olunan çoxmənzilli binaların zəlzələyə davamlılıq məsələsinə gəlincə ilk növbədə həmin binaların ciddi araşdırılmasına ehtiyac var. Demirəm ki, Azərbaycanda tikilən binalar 100 faiz keyfiyyətlidir və yüksək ballıq zəlzələyə davamlıdır. Amma son illər şəhərin mərkəzində və ona yaxın ərazilərdə inşa olunan binaların çoxu keyfiyyət standartlarına tam cavab verir. Onların zəlzələyə davamlılığı olduqca yüksəkdir. Qeyd etmək istərdim ki, zəlzələnin gücü, təkanın baş vermə müddəti də nəzərə alınmalıdır. Məsələn, elə ola bilər ki, zəlzələ təkanları 20-25 saniyə və ya 2-3 dəqiqə çəkə bilər. 7,5-8 ballıq zəlzələdə 9 ballıq zəlzələyə dayanıqlı bina da defarmasiyaya uğrayacaq, uçacaq.



***-Ölkəmizdə olan köhnə tikililərlə bağlı məsələ də müzakirə olunur. Hazırda Azərbaycanda istismar müddətini bitirmiş nə qədər bina var və onlar zəlzələyə davamlıdırmı?***

-2018-ci ildə Bakı Şəhər İcra Hakimiyyətinin açıqladığı rəqəm var. O zaman Nazirlər Kabinetinin bununla bağlı sərəncamı oldu. Təqribən istismar müddətini başa vurmuş 11 minə yaxın köhnə tikilinin sökülməsi məsələsi gündəmə gəlmişdi. Bununla bağlı qərar da var idi. Ondan sonra pilot layihə çərçivəsində bu binaların çoxu söküldü. İndi bunu konkret söyləmək düzgün deyil. O baxımdan ki, bununla bağlı ciddi araşdırma aparılmalıdır. Bütün hallarda köhnə çoxmənzilli binaların əksəriyyəti Türkiyədəki kimi zəlzələyə davamlı və dayanıqlı deyil. Bu binaların əksəriyyəti beton panel konstruksiyalardan ibarətdir və bir çoxunun zirzəmilərinə uzun illərdir su yığılıbdır. Həmin binaların dayanıqlığı xeyli dərəcədə zəifləyib. Həmin binalarla bağlı narahatlıqlar var. Bu narahatlıqlar həmin binalar tam sökülüb başa çatdırılmayana qədər davam edəcək. Həmin binaların hansısa formada bərkidilməsi, üzlənilməsi bu binaların fiziki ömrünü o qədər də uzatmır.

***-Həyət evlərinin zəlzələ zamanı daha təhlükəsiz olması ilə bağlı fikirlər var. Məlum zəlzələdən sonra ölkəmizdə həyət evlərinin qiymətində hansısa dəyişiklik olubmu?***

-Bu cür hadisələr zamanı psixoloji faktların təsiri nəticəsində fərdi evlərdə məskunlaşma ilə bağlı ictimai rəy formalaşır. Fikirlər daha çox buna yönəlir ki, fərdi yaşayış evləri daha təhlükəsizdir. Bu, qısamüddətli dövrü əhatə edən fikirdir. Bir müddətdən sonra ictimai rəydə yaranan bu fikir aradan qalxacaq və həyat öz axarına düşəcək. Zəlzələlər zamanı bu kimi məsələlər müzakirə olunub. Bir müddət keçdikdən sonra bu məsələ aradan qalxıb. İndi də belə fikirlərin ortaya çıxması başadüşüləndir. Qısamüddətli dövr üçün Azərbaycanda da fərdi yaşayış evlərinə olan marağı artıracaq. Azərbaycanda bir neçə ay müddətində fərdi yaşayış evlərinin qiymətində fantastik olmasa da, nisbi qiymət artımları baş verəcək.

***-Hazırda Azərbaycanda evlərin qiymətində ötən illə müqayisədə nə qədər bahalaşma var?***

-İlin əvvəlindən başlayaraq çoxmənzilli yaşayış binalarındakı mənzillərin qiymətində ciddi artımlar müşahidə olunmur. Hazırda qiymətlər stabildir. Amma ötən il qiymət artımları təqribən 30 faizə yaxın olub. Bu, son 15 il üçün fantastik göstərici hesab olunur. 2006-2007-ci illərdən indiyə qədər bazarda bir il ərzində bu qədər qiymət artımı müşahidə olunmamışdı. Bu il hələki qiymət artımı yoxdur. Fərdi yaşayış evlərinin qiymətinə gəlincə, 2-3 gün ərzində bu evlərin qiymətində artım müşahidə etmək tezdir. Ona görə ki, mənzilin təklifə çıxarılan dəyərinin artırılması onun bazar dəyərinin artımı demək deyil. Ola bilsin ki, mülkiyyətçi mənzilinin qiymətini artırır, amma onun qiyməti satıldığı dövrdə tərəflər arasında razılaşmaya uyğun olan rəqəmə söykənir. Hesab edirəm ki, bir-iki gün ərzində bunu təhlil etmək, nəticə çıxarmaq doğru deyil. Belə fikirlər var ki, fərdi yaşayış evlərinin qiyməti bahalaşdı və s. Bu, spekulyativ yanaşmadır. Qısa müddətdə bunu təhlil etmək mümkün deyil. Təqribi dəyəri 150-160 min manata olan mənzillər üzrə ekspazisiya müddəti 50 gündən artıqdır. Fərdi yaşayış evlərində isə bu müddət 3 aydan artıqdır. Bu baxımdan, qısa müddətdə fərdi yaşayış evləri ilə bağlı qiyməti ortaya qoymaq doğru deyil.

***-Kirayə mənzil bazarında qiymətlərdə hansısa dəyişiklik müşahidə olunurmu?***

-Bu dövr kirayə mənzil bazarı üçün aktiv dövr hesab olunmur. İndiki halda kirayə mənzillərin qiymətində hər hansı formada dəyişiklik müşahidə olunmur.

***Anar Kəlbiyev***

# Səlim Müslümovun 6 milyon manatlıq müamması

## Necə ola bilər ki, hansısa keçmiş nazir yeyintiyə yol versin, rüşvət alsın, ancaq israfa yol verməsin?!

***Bu günlərdə belə məlum oldu ki, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun məhkəməsində ilginc məqam yaşanıb. Belə ki, 27 milyonluq mənimsəmə, israfetmə və rüşvətalma kimi cinayət əməllərində ittiham olunan Müslümov həmin məbləğin 20 milyonunu ödəyib.***

Bir az da dəqiqləşdirək: Bakı Ağır Cinayətlər Məhkəməsində Səlim Müslümovun işinə baxan hakim Faiq Qəniyev bildirmişdi ki, cinayət nəticəsində dəymiş ziyanın 20 milyon manatlıq hissəsi təqsirləndirilən şəxs (yəni adı çəkilən keçmiş nazir) tərəfindən ödənilib.



Qalan 7 milyon manata gəlincə, hakim demişdi ki, bu, israfetmə nəticəsində vurulmuş ziyandır. Həmin əməllərlə bağlı Səlim Müslümovun işindən başqa bir cinayət işi də var. Bu məsələ ilə bağlı araşdırma nəticəsində Səlim Müslümov nazir olduğu dövrdə nazirliyin bir sıra əməkdaşlarının, tenderlərdə qalib olmuş şirkətlərin rəhbərlərinin fəaliyyətləri zamanı qanunsuzluqlara yol verdikləri ortaya çıxıb. İsraf edildiyi iddia olunan 7 milyon manatla əlaqədar Səlim Müslümova ittiham verilsə də, o vəsaitləri həmin şəxslər ödəməlidir. Odur ki, istintaq orqanı həmin adamları çağırıb, onlardan vurduqları ziyanı tələb edir. Nəticədə qanunsuzluğa yol vermiş şəxslərin bir qisminə 7 milyonun 1 milyondan artıq hissəsi ödətdirilib. Qalan 6 milyon manata yaxın hissəsinin də ödənilməsi davam etdirilir.

Səlim Müslümov məhkəmədə ifadə verəndə də deyirdi ki, özünü mənimsəmə və rüşvətalmada təqsirli bilir, israfetmə ittihamını qəbul eləmir. Ona görə də 20 milyonu ödəsə belə, qalan 7 milyonu qaytarmaq niyyətində deyil.

Müslümovun bu reaksiyası nə hüquqi, nə də əxlaqi baxımdan qəbuledilən, ümumiyyətlə isə yerli-dibli anlaşılan deyil.

Təsəvvür edin ki, bir keçmiş nazir mənimsəməyə yol verdiyini boynuna alır, rüşvəti qəbul eləyir, lakin... Lakin israfetmə ilə razılaşmır!

Məntiq tapmaq çətin məsələdir: belə çıxır ki, hazırda 62 yaşı olan, ağsaqqallıq çağı ərəfəsində olan Səlim müəllim büdcə vəsaitlərinin altından girib üstündən çıxdığını boynuna alır; üstəlik, öz fəaliyyətində rüşvətin həlledici rol oynadığını qəbul edir, bütün bu sadalananlara görə dövlət büdcəsinə 20 milyon manatlıq zərər vurması, nəhayət, həmin zərəri geri ödəməli olması ilə razılaşır, amma...

Amma 6 milyon manatlıq israfetməni üzərindən atır!

Şübhəsiz ki, bu, hər hansı məntiqə sığmır. Ən azı iki səbəbdən:

Birincisi, Müslümova qarşı ittiham olunan 20 milyon manatlıq zərər belə, onsuz da, cəmiyyət tərəfindən yetərincə az inandırıcı qəbul olunur. Cəmiyyətin əksər qismi əmindir ki, əmək və əhalinin sosial müdafiəsi naziri postunu tutduğu dönəmdə Səlim müəllim daha genişmiqyaslı korrupsiya əməllərinə yol verib. Yəni, Müslümova rəsmi rəqəmlərdən qatbaqat böyük məbləğdə yeyinti üzrə cinayət işi açılmalı, o da bunun müqabilində indikindən dəfələrlə yüksək rəqəmlərlə müşayiət olunan dövlət vəsaitini geri qaytarmalıdır.

İkincisi, eks-nazir həmin postu tutduğu zamanda ailə biznesini misli görünməmiş həddə böyüdüb. Ölkə daxilində azmış kimi, Azərbaycan hüdudlarından kənarda da fantastik miqyasda var-dövlətə yiyələnib. İstər-istəməz sual yaranır: Müslümov sözügedən imkanları nəyin müqabilində əldə edib? Doğrudanmı, özünün nazir olduğu zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzərinə düşən vəzifələri düz-əməlli yerinə yetirə bilmədiyi halda, Səlim müəllim hər hansı israfa yol vermədən çalışıb?!

Bu, əlbəttə ki, elə ilk baxışdan gülməli görünür. Ən azı ondan ötrü ki, Müslümovun nazir olduğu dönəmdə yeyinti at oynadıbsa, rüşvət baş alıb gedibsə, israfetməyə yol verilməməsi necə mümkün ola bilərdi? Hansı tərəfdən baxırıqsa baxaq, Səlim müəllimin söylədikləri əsl tragikomediyadır: necə ola bilər ki, bir nazir yeyintiyə yol versin, rüşvət alsın, ancaq israfa yol verməsin?!

Belə aydın olur ki, dəmir barmaqlıqlar ardına atılması hələ də keçmiş nazir üçün dərsə çevrilməyib. Qısası, elə fikirləşir ki, gülməli bəhanələrlə bir vaxtlar yiyələndiyi 6 milyon manatı yenidən ovcunda saxlaya bilər. O zaman sual yaranır - lap tutaq ki, 20 milyon manatı dövlət büdcəsinə qaytarıb, yaxşı onda qoy cavab versin görək, illik 30 min manat maaşla hazırda gizlətməyə çalışdığı 6 milyon manatın sahibi olmağı necə bacarıb?!

Doğrudanmı, Müslümov başda olmaqla, eks-nazirlər, yaxud digər yüksək vəzifə sahibləri elə hesab edirlər ki, camaat çörəyi qulağına yeyir?!.

***Toğrul Əliyev***



# Əfşar Süleymaninin keçmiş xanımı dələduzluqda ittiham olunur

***Yazıçı Şəmsiyyə Bəylərqızı (Rzayeva) barəsində cinayət işi başlanıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, o, qohumu Sadiq Hüseynova qarşı 50 000 manatlıq dələduzluqda ittiham olunur.

Belə ki, S.Hüseynovun müraciəti əsasında Xətai Rayon Polis İdarəsində araşdırma aparılıb. Araşdırmalardan sonra Ş.Bəylərqızı barəsində Cinayət Məcəlləsinin 178.2.2-ci maddəsi (dələduzluq) ilə cinayət işi başlanıb.

İttihama görə, o, qohumu Sadiq Hüseynovu nüfuzlu dövlət qurumunda tikintilərə nəzarət komissiyasının üzvü vəzifəsinə işə düzəltdirəcəcəyinə vəd verib. Vədin qarşılığında ondan 35 000 manat pul alıb. Hadisə ötən ilin mayında baş verib. 1 ay sonra isə lombarddan aşağı faizlə borc götürüb vermək imkanına malik olduğunu deyərək S.Hüseynovun daha 15 000 manat dəyərindəki qızıl-zinət əşyalarını ələ keçirib.

Xətai RPİ-də aparılan istintaq tamamlanaraq baxılması üçün məhkəməyə göndərilib. Onun barəsində başqa yerə getməmək qətimkan tədbiri seçilib.

Xatırladaq ki, Azərbaycan və Rusiya Yazıçılar Birliyinin üzvü olan Şəmsiyyə Bəylərqızı vaxtilə İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymaninin həyat yoldaşı olub. Bir müddət sonra səfir arvadını onun 741 min dollarını mənimsəməkdə günahlandırıb. Ş.Bəylərqızı bu ittihamla 10 il müddətə azadlıqdan məhrum edilib. 2019-cu ildə əfv olunaraq azadlığa çıxıb.

# Şahin Mustafayev və Muxtar Babayev Naxçıvana getdi

***Fevralın 9-da Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfər edib.***

"Unikal" xəbər verir ki, səfər ümummilli lider Heydər Əliyevin abidəsini ziyarətlə başlayıb.

Səfərin məqsədi muxtar respublikada meliorasiya və irriqasiya sahəsində görülmüş işləri, su tutarlarında yığılan suyun vəziyyəti, suvarma və içməli suya olan tələbatı yerindəcə öyrənib təhlil etmək, içməli və suvarma su təminatının daha da yaxşılaşdırılmasına nail olmaqdır. Muxtar respublikanın təbii sərvətləri, su ehtiyatları, kənd təsərrüfatı, ekoloji potensialı barədə təhlil aparmaq, bu vacib sahələrin inkişafını yeni dövrün tələblərinə uyğunlaşdırmaq, iqtisadi səmərəliliyini yüksəltmək də prioritet vəzifələr sırasındadır.

Mütəxəssislər Bənəniyar Su Anbarı və kanalına, Nehrəm Su Anbarına, Batabat yaylasına (qar ehtiyatları üçün), Heydər Əliyev Su Anbarına, Şahbuz Şəhər Təmizləyici Qurğular Kopleksinə, Uzunoba Su Anbarına, Naxçıvan Şəhər Su Təmizləyici Qurğular Kompleksinə, Qaraçuq kanalına, Araz Su Anbarı üzərində "Qaraçuq-1" panton nasos stansiyasına, Arpaçay Su Anbarına, Arpaçay sağ sahil kanalına baxış keçirəcəklər.

Qonaqlar səfər çərçivəsində muxtar respublikanın rəsmi şəxsləri ilə də görüşərək mövcud vəziyyəti dəyərləndirəcək, görüləcək işləri müzakirə edəcəklər.

Qeyd edək ki, nümayəndə heyətinə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin rəisi Hikmət Məmmədov, Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafiq Verdiyev, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov və digər rəsmi şəxslər daxildir.



## Deputatlar Türkiyəyə yardım kampaniyasına qoşulublar

***Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə Türkiyədə zəlzələdən zərərçəkənlərə yardım kampaniyası başladılıb.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında komitə sədri Tahir Mirkişili deyib.

"Milli Məclisin deputatları və əməkdaşları Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə yardım kampaniyasına qoşulub. Bundan başqa, Heydər Əliyev Fondu tərəfindən Türkiyəyə göstərilən humanitar yardıma da qoşulacağıq".

***Anar Kəlbiyev***

## Rəis müavini köhnə və yeni tikilmiş binalardakı ən böyük problemi açıqladı

***"Bizdə 30-40 il əvvəl və ya 1 il bundan əvvəl tikilmiş binalarda ən böyük problem sonradan sakinlərin və mülkiyyətçilərin icazəsiz apardığı müdaxilələr və dəyişikliklərdir".***

"Unikal" xəbər verir ki, bunu APA-ya müsahibəsində Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov bildirib.

Elxan Əsədov deyib ki, bu gün Bakıda və respublika ərazisində 70-ci illərdə tikilmiş iri bloklu, beton panel binaların panellərinin dağıdılaraq otaqların genişləndirilməsi, yaxud zirzəmi hissəsində bünövrənin dağıdılaraq qapılar açılması, mənzilin planını dəyişdirmək üçün müəyyən konstruksiyaların sökülməsi kimi hallarla qarşılaşırlar:

"Bizim zəlzələyədavamlılıq baxımından ən böyük bəlamız deyərdim ki, budur. Hesab edirəm ki, bununla mübarizə daha da sərtləşdirilməlidir. Qanunvericiliyə əsasən, hər bir mülkiyyətçi və ya balans saxlayıcı təşkilat binaların qorunmasına cavabdehdir. Müdaxilə olmasa belə, binalarda hansısa qüsurlarla, çatlarla, dağıntılarla qarşılaşdıqları halda bizə müraciət etməlidirlər və bizim institutlarımız tərəfindən müqavilə əsasında həmin binalarda müayinələr aparılıb, aktlaşdırılmalı və bunun əsasında qüsurların aradan qaldırılması üçün mülkiyyətçilər tərəfindən lazımi tədbirlər həyata keçirilməlidir".

# Məmurların bitmək bilməyən oyunu...

## Pandemiya başa çatıb, ancaq sənədsiz evlərin inventarlaşdırılması prosesi hələ də bərpa olunmayıb - əcəba, niyə?

***Yola salmaq üzrə olduğumuz həftə sənədsiz evlərlə bağlı ilkin konsepsiya sənədinin hazırlandığı açıqlandı. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri"nin İdarə Heyətinin sədri Nigar Alimova deyib ki, özbaşına tikililərin tənzimlənməsi müxtəlif dövlət qurumlarının səlahiyyətlərinə aid kompleks tədbirləri zəruri edir. Sitat: "Burada mülkiyyət hüququnun yaranması və qorunması, torpaqlardan istifadə, şəhərsalma qaydaları, tikintinin təhlükəsizliyi tələblərinə əməl edilməsi kimi aspektlər mövcuddur. Müzakirələrdən sonra məsələlərin hansı ardıcıllıqla öz həllini tapacağını demək olar. Hazırda qanuniləşdirilməsi ən asan olan evlər kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilən evlərdir. Burada yalnız söhbət torpağın kateqoriyasının dəyişdirilməsindən gedir".***



Qeyd edək ki, kadastr məlumatlarına əsasən, ölkə üzrə qeydiyyata alınmamış tikililərin sayı təqribən 450 min təşkil edir. Bunun təxminən 400 mindən çoxu Bakı və Abşeron yarımadasının payına düşür. Artıq uzun müddətdir ki, həmin evlərə sənədlərin verilməsi müzakirə olunsa da hələ də nəticə yoxdur.

Məsələ ilə bağlı millət vəkili Azər Badamov "cebhe.info"ya bildirib ki, evlərin sənədləşdirilməsi uzun illər ərzində yığılmış və həllini gözləyən problemdir: "Bu problemin həll olunması ilə bağlı ölkə başçısının tapşırığı da olub. Pandemiya başlayana qədər müvafiq komissiya sənədsiz evlərin təftiş edilməsi istiqamətində işləri sürətlə aparırdı. Amma pandemiyanın həyatımıza gəlməsi və canlı təmaslara qadağaların tətbiqi aktiv şəkildə başlanmış bu işin dayanmasına səbəb oldu. Bu gün isə pandemiya ilə bağlı tətbiq olunmuş məhdudiyyətlər aradan qalxıb və pandemiyaya qədər başlanmış sənədsiz evlərin təftişi məsələsi yenidən davam etdirilməlidir. Hesab edirəm ki, müvafiq komissiya öz işini bərpa edəcək və sənədsiz evlərin təftişinin başa çatdırılaraq təhlükəsiz ərazilərdə yerləşməyən evlərin sənədləşdirilməsi prosesinə başlanacaq".

Elə ən çox maraq doğuran məqamlardan biri də budur: pandemiya artıq uzun müddətdir başa çatsa və cəmiyyət normal həyata qayıtsa da, sözügedən komissiya niyə fəaliyyətini bərpa eləmir? Kim bilir, bəlkə də, yuxarıdakı sualın cavabını sənədsiz evlərlə bağlı məsələnin uzun illərdir dalana dirənməsinin səbəbləri barədə cəmiyyətdə formalaşmış qənaətdə axtarmaq lazımdır. Məsələ burasındadır ki, mütəxəssislər sənədsiz evlərlə bağlı başından bəri eyni tələbi səsləndirirlər: "Sənədləşdirilməlidirlər!" Lakin ortada real nəticə yoxdur. Az qala 10 ildir ki, aidiyyatı qurumlar bu məsələ ilə bağlı həlledici addım ata, problemi yoluna qoya bilmirlər. Bu isə haqlı olaraq belə təəssürat yaradır ki, sənədləşmə işi kimlərinsə marağına cavab vermir. Nəticədə isə dövlət xəzinəsi hər il külli miqdarda vəsaitdən məhrum olur.

Sənədsiz evlərin inventarlaşdırılması ilə bağlı yaradılmış komissiyaların fəaliyyətində pandemiya ilə bağlı yaranan fasilənin pandemiya bitməsinə rəğmən davam etməsi də kimlərinsə maraqları müstəvisində qiymətləndirilməlidir. Xatırladaq ki, həmin komissiyalar rayon icra hakimiyyətlərinin nəzdində yaradılıb. Ən ilginci isə odur ki, əksər ekspertlərin fikrincə, sənədləşdirmə prosesini sabotaj eləyən də elə icra hakimiyyətlərinin özləridir. Onlar hansısa səbəblərdən bu işin sürətlənməsində maraqlı deyil.

Hələ 2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə Prezident rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini demişdi: "Bakıda evlərin qeydiyyata alınması problemi var. Ancaq elə etmək lazımdır ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısı tam şəkildə alınsın. Sirr deyil ki, qeydiyyata alınma zamanı əsassız tələblər irəli sürülə, rüşvət, əsassız maraqlar ola bilər. Bu, reallıqdır. Ona görə də Hacıbala Abutalıbova göstəriş vermişəm. Bu məsələnin həlli üçün şəffaf mexanizm işlənməlidir ki, biz burada korrupsiyanı, rüşvətxorluğu tamamilə aradan götürək. Yoxsa, xoşniyyətli bir təşəbbüs yenə də bəzi adamların tamahkarlığı ucbatından bizə ancaq problemlər gətirə bilər".

Amma görünən odur ki, ölkə başçısının dediyi kimi, ötən müddətdə bu xoşniyyətli təşəbbüsdən qaz vurub qazan dolduranlar vardı. Əks halda hətta sənədləri qaydasında olan vətəndaşları da min bir bəhanə ilə get-gələ salmazdılar. Əvvəllər də yazmışdıq: son illərdə ölkədə aparılan genişmiqyaslı kadr və struktur islahatlarının qanunsuz evlərin sənədləşdirilməsinə töhvə verəcəyinə, bu prosesin süni şəkildə yubadılmasının qarşısını alacağına dair gözləntilər var idi. Lakin təəssüflə qeyd etmək lazımdır ki, hələlik bu gözləntilər özünü doğrultmayıb. Hələ də hansısa "gizli əllər" məsələnin həllini dalana dirəməkdə davam edirlər. Elə ekspertlər də eyni qənaətdədirlər; məsələn, "MBA Konsaltinq" Şirkətinin rəhbəri Nüsrət İbrahimli açıqlamalarının birində demişdi ki, sənədsiz evlərin qeydiyyatı məsələsinin həll olunmamasına obyektiv və subyektiv amillər əngəl olur. Sitat: "Subyektiv amillər olaraq onu deyə bilərəm ki, sənədsiz evlərin qeydiyyatının ləngiməsi yəqin kiminsə maraqlarının tapdanması ilə əlaqədardır...".

Unutmayaq ki, qeydiyyatsız evlərin sənədləşdirilməsi prosesinin yubanması həm vətəndaşlara, həm də dövlətə ciddi ziyan vurur. Müstəqil ekspertlərin hesablamalarına əsasən, qeydiyyatsız evlərin mövcudluğundan hər il dövlət büdcəsinə təxminən 100 milyon manatdan artıq vəsaitin daxil olmasının qarşısı alınır. Evlərin qeydiyyatsız olması həmin mülk sahiblərinin əmlak vergisindən kənarda qalması ilə nəticələnir. Bu da hər il dövlət büdcəsinə təxminən 100 milyon manatdan artıq vəsaitin daxil olmasının qarşısını alır. Görünür, hansısa maraqlı qüvvələr sənədləşdirməni yubatmaqla həmin böyük pulları dövlətin xəzinəsindən yayındırmağa, öz ciblərinə yönəltməyə çalışırlar.

Bundan başqa bəzi ekspertlərin fikrincə, sənədləşmə normal qaydada həyata keçirilərsə, bu, bir çox məmurların maraqlarına toxuna bilər. "Bəzi sahələrə məmurların gözü düşübsə, onlara sənədsiz evlərdə yaşayanları ərazidən çıxarmaq daha asandır. Qanunsuz tikililər adı ilə öz niyyətlərini gerçəkləşdirmək daha asandır" - onlar belə deyirlər.

Yuxarıda sadalanan faktorları ciddiyə almaq lazımdır, əks halda adi bir problemin 10 ildən çoxdur heç cür həllini tapmamasına məntiqi izah vermək mümkünsüzdür.

***Sənan Mirzə***

# Tikinti oliqarxları ilə bağlı böyük şübhə

## Həftənin sualı: Bakıda inşa edilən göydələnlərin təhlükəsizliyi məsələsində fikirlər niyə haçalanıb?

***Türkiyədə baş verən faciəvi zəlzələdən sonra Azərbaycanda inşa olunan çoxmərtəbəli yaşayış binalarının ekspertizası aparılacaq. Bu barədə "gununsesi.info" hökumətdəki mənbələrinə istinadən məlumat verib. Məlumatda bildirilir ki , Baş nazir Əli Əsədovun göstərişi ilə Fövqəladə Hallar Nazirliyi və aidiyyatı qurumlar Bakı şəhərində inşa olunmuş yaşayış binalarının zəlzələyə davamlılığı və yerləşdiyi ərazidəki seysmik durumu araşdıracaqlar.***

Həmin məlumat hələlik rəsmi olaraq təsdiqlənməsə də,



qardaş ölkədəki dəhşətli yeraltı təkanların ardından paytaxtdakı yüksəkmərtəbəli binaların zəlzələyə davamlılığı barədə müzakirələr aktuallaşıb. Həmin müzakirələrdə fikirlər ikiyə haçalanır. Bir çoxlarının qənaətinə görə, tikinti oliqarxlarına tam etimad göstərmək mümkün deyil, belə ki, göydələnlərin inşası zamanı layihələndirmədən tutmuş inşaat materiallarının keyfiyyətinədək bir çox məqamlarla bağlı ciddi şübhələr var. Üstəlik, tikintiyə icazə verən və nəzarət edən aidiyyatı qurumların fəaliyyətində şəffaflıq baxımından problemlər olduğunu nəzərə aldıqda narahatlıqlar daha da artır.

Bu arada Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov yerli mediaya müsahibəsində qəti şəkildə bildirib ki, ölkədə tikintilər istənilən zəlzələyə davamlıdır. Sitat: "Son 15 il üçün deyə bilərəm ki, tikinti keyfiyyəti çox yüksək səviyyədədir və Azərbaycan ərazisində baş verə biləcək istənilən zəlzələyə davamlıdır".

Bir müddət əvvəl isə Azərbaycan Memarlar İttifaqının üzvü, memar Fəzail Bayramov mediaya müsahibəsi zamanı demişdi ki, inşaat sahəsində dəmir-beton öz yerini metal konstruksiyaya verib. Belə ki, metal konstruksiya çox dayanıqlı, möhkəm və elastik olduğu üçün müasir memarlıqda daha çox tətbiq olunur: "Məhz bu səbəbdən Bakının özündə çoxmərtəbəli binalar 8-9 bal gücündə zəlzələyə davamlıdır. İsmayıllı rayonunun dağ hissələri xeyli seysmo aktiv olduğundan orada çoxmərtəbəli deyil, yalnız 1 mərtəbəli evlərin tikintisi məqsədəuyğundur. Çünki bu yerlərdə 9-10 bal gücündə zəlzələ olması mümkündür. Odur ki, hər hansı bir ərazidə bina tikilərkən, yaşayış məskəni salınarkən həmin ərazilərdə torpağın qruntu, geoloji xüsusiyyətləri öyrənilməlidir. Həmçinin layihə hazırlanarkən qanunvericilikdə nəzərdə tutulmuş müvafiq normalara əməl edilməlidir".

Elə cəmiyyətdə müzakirə olunan da budur: memarın sözləri ilə desək, hər hansı bir ərazidə bina tikilərkən, yaşayış məskəni salınarkən həmin ərazilərdə torpağın qruntu, geoloji xüsusiyyətləri öyrənilirmi? Layihə hazırlanarkən qanunvericilikdə nəzərdə tutulmuş müvafiq normalara əməl edilirmi?

Rəsmilərə inansaq, qeyd-şərtsiz - bəli! Lakin bu, müstəqil ekspertlərin bir qismini, eləcə də sadə vətəndaşları şübhələrdən azad etmir. Bir daha vurğulayaq ki, səbəb tikinti oliqarxlarının, MTK-ların daha çox qazanmaq istəyindən doğan inamsızlıqdır. Bəziləri haqlı olaraq düşünür ki, bir mənzili bir neçə nəfərə satmaqdan çəkinməyənlərin qanunvericilikdəki digər tələblərə həssas yanaşacaqlarını necə fikirləşə bilərik? Yanılırlarmı? Əlbəttə, xeyr.

Elə buna görədir ki, qardaş Türkiyədəki dəhşətli zəlzələdən sonra Azərbaycan cəmiyyətində yeni tikilən binalarla bağlı narahatlıqlar uca səslə dilə gətirilir. Məsələn, tikintidə təhlükəsizlik üzrə mütəxəssis Samir Nəbiyev bu günlərdə bildirib ki, Azərbaycanda 2000-ci ildən bu yana "tikinti bumu" başlayıb. Sitat: "Nəticədə kifayət qədər həm yararlı, həm də yararsız tikililərin olduğunu müşahidə edirik. Bizim qanunlara, texniki tələblərə görə, binalarımız 9 ballıq "şkala"ya dözməlidir, ancaq bu, tam həqiqət deyil. Çünki hər yerdə tikinti qaydalarına eyni şəkildə əməl olunmur. Bu da onunla bağlıdır ki, tələb edən fərqli insanlar, fərqli qurumlardır".

Beləliklə, hökumət əgər doğrudan da Azərbaycanda inşa olunan çoxmərtəbəli yaşayış binalarının ekspertizasına start verəcəksə, bu yalnız təqdirəlayiqdir. Həmin ekspertiza sözügedən binaların təhlükəsizliyi ilə bağlı mübahisələrə son qoyar, eləcə də bu binaları inşa edən tikinti oliqarxlarına, MTK-lara qarşı cəmiyyətdəki şübhələri, etimadsızlığı aradan qaldırardı.

*Sənan Mirzə*



# İnam Kərimov Saatlıda vətəndaşları qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.***

"Unikal" xəbər verir ki, tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq kənd təsərrüfatı naziri İnam Kərimov fevralın 9-da Saatlı Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Saatlı, Sabirabad, İmişli və və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Qəbuldan öncə nazir İnam Kərimov və Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Daha sonra nazir İnam Kərimov Saatlı Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 52 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə subsidiya, güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə, torpaqların təyinatının dəyişdirilməsi, sığorta hadisəsi zamanı dəymiş ziyanın ödənilməsi və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Saatlı Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Aqrar Xidmətlər Agentliyinin Səyyar Xidmət Qrupu mexanizatorlar üçün səyyar xidmət təşkil edib. Xidmət zamanı etibarlılıq müddəti bitən traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün mexanizatorların sürücülük vəsiqələri yeniləri ilə əvəz edilib. "Səyyar Xidmət" qrupu öz fəaliyyətini gün ərzində davam etdirəcək. Nazir İnam Kərimov səyyar xidmətin təşkili prosesi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımı tövsiyələrini verib.


## ELAN

Hərrac: Bakı şəh, İ.Hidayətzadə küç, 156(20A) 1933-cü məh, ünvanda keçirilir.tel:566-70-25, 566-79-67.http:birjanew.az. Açıq formada "Toyota Prado" markalı avtomobil-40 200.00 manat, "Mitsubishi Outlander" markalı avtomobil-9500.00 manat, "Toyota Land Crusier Prado" markalı avtomobil-37 000.00 manat, "Mitsubishi ASX" markalı avtomobil-12 000.00 manat, "Great Wall Wingle 5" markalı avtomobil-6 500.00 manat, "Mitsubishi ASX" markalı avtomobil-11 000.00 manat, "Toyota Camry" markalı avtomobil-23500,00 manat, Beh: Satış qiymətinin 5% hərrac təşkilatı depozit hesabına təşkilatının depozit hesabına. Behlər hərrac gününə kimi qəbul olunur. Hərraca beh ödəmiş iştirakçılar saat 11:00 da hərrac təşkilatında qeydiyyatdan keçməlidirlər. Hərrac addımı ipoteka predmetlərində: Satış qiymətinin 3%-dək. Digər hallarda sərbəst. 01/01d lot üzrə. Fiziki şəxslər şəxsiyyət vəsiqəsi;Hüquqi şəxslər-təsis sənədləri.Hərracı udmuş şəxs alış qiymətini 7 təqvim günü müddətində sifarişçinin depozit hesabına ödəməlidir. Qalib olmayan alıcıların behləri 7 təqdim günü müddətində geri qaytarılır. Hərrac 20.02.2023-cü il tarixində saat 11:00-17.00-dək (növbəlik əsasında) keçiriləcək.



## İSİ ilə bu universitet arasında əməkdaşlıq memorandumları imzalanıb

***7 fevral 2023-cü il tarixində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutunda (İSİ) Özbəkistanın İqtisadiyyat və Pedaqogika Universitetinin idarə heyəti ilə görüş keçirilib. Görüşün əsas məqsədi elm və təhsil sahələrində əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi olub.***

”Unikal” xəbər verir ki, görüşdə İSİ-nin baş direktoru, akademik Əli Abbasov, icraçı direktoru, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, Beynəlxalq əlaqələr və innovasiya şöbəsinin müdiri, t.ü.f.d. Tofiq Babayev, Təhsil şöbəsinin müdiri, r.ü.f.d. Sevinc Quliyeva, Bakı Dövlət Universitetinin Hesablama riyaziyyatı kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Vaqif İbrahimov, Özbəkistanın İqtisadiyyat və Pedaqogika Universitetinin rektoru Bozorov Otabek Nashvandovich, Elm və İnnovasiya üzrə prorektor Farmanov Jasur Boykaraevich, Beynəlxalq əməkdaşlıq şöbəsinin rəhbəri Abdurakhimov Shokhjakhon Uktam ugli, Elmi-Tədqiqat İnnovasiya və Təhsil şöbəsinin müdiri Jurayev Davron Aslonkulovich iştirak ediblər.

Əvvəlcə akademik Ə.Abbasov qonaqlara instituta göstərilən diqqətə görə təşəkkürünü bildirərək rəhbərlik etdiyi elmi müəssisənin tarixi, əsas fəaliyyət istiqamətləri, aparılan fundamental elmi tədqiqatlar, əldə olunan mühüm elmi nəticələr, kadr hazırlığı və beynəlxalq əməkdaşlıq əlaqələri barədə məlumat verib.

Sonra Özbəkistanın İqtisadiyyat və Pedaqogika Universitetinin rektoru O.Bozorov rəhbərlik etdiyi müəssisənin yaranma tarixi, fəaliyyəti və tədrisin təşkili barədə məlumat verib. O, İdarəetmə Sistemləri İnstitutu kimi böyük tarixə malik, qabaqcıl elmi-tədqiqat müəssisəsi ilə əməkdaşlıq etməkdən məmnun olduğunu bildirərək ikitərəfli əlaqələrin inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Görüş çərçivəsində sözügedən müəssisələr arasında birgə elmi tədqiqatların həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb. Həmçinin Təhsil, Beynəlxalq əlaqələr və innovasiya şöbələri arasında təhsil sahəsində əməkdaşlıq istiqamətində perspektivlər müzakirə olunub.

Sonda tərəflər arasında əməkdaşlıq memorandumları imzalanıb.

## “Aztelekom” və “Baktelecom” müştəri məmnuniyyəti üzrə artım nümayiş etdirib

***“Aztelekom” və “Baktelecom”un müştərilərə göstərdiyi yüksəkkeyfiyyətli xidmət sayəsində müştəri məmnuniyyətində artım müşahidə olunub.***

”Unikal” xəbər verir ki, yerli araşdırma şirkətinin apardığı sorğunun nəticələrinə əsasən, 2022-ci il ərzində “Aztelekom” və “Baktelecom”un ölkə ərazisində Müştəri Loyallığı İndeksi (Net Promoter Score - NPS) 2021-ci illə müqayisədə müvafiq olaraq 23 bal və 18 bal artıb.

Qeyd edək ki, burada əsas təşviq faktoru internetin sürəti və sabitliyidir. Sorğuda vətəndaşların markaya - xidmətin keyfiyyətinə, qiymətlərə münasibəti öyrənilib. “Aztelekom” və “Baktelecom” müvafiq göstəricilərin inkişafı ilə diqqət çəkib.

Həmçinin müştəri sorğularının işlənməsi və cavablandırılmasının təkmilləşdirilməsi, GPON (Gibabit Passive Optical Networks) texnologiyası vasitəsilə genişzolaqlı internet xidmətlərinin göstərilməsi, internet sürətinin daha yaxşı təmin edilməsi üçün şəbəkənin təkmilləşdirilməsi və ötən il ərzində digər planlaşdırılmış strateji təşəbbüslər müştəri məmnuniyyətini təmin edən faktorlardır.

Məlumat üçün bildirək ki, NPS müştəri məmnuniyyətini ölçən və biznesin böyüməsini proqnozlaşdıran sistemdir. Bundan dünya miqyasında ən böyük şirkətlər istifadə edir.

Qeyd edək ki, ölkə ərazisində “Onlayn Azərbaycan” layihəsi çərçivəsində GPON texnologiyası əsasında sürətli və kəsintisiz fiber-optik şəbəkənin qurulması həyata keçirilir. Bu günə qədər 814 minədək ev təsərrüfatı bu texnologiya əsasında sürətli və kəsintisiz fiber-optik internetlə təmin olunub. Layihənin əsas məqsədi dövlət-özəl tərəfdaşlıq modeli əsasında bir neçə telekommunikasiya operatorunun birgə səyləri nəticəsində 2024-cü ilin sonuna qədər minimum 25 Mbit/s internet sürəti ilə bütün ölkəni əhatə edən genişzolaqlı şəbəkə qurmaqdan ibarətdir. “Aztelekom” və “Baktelecom” layihə çərçivəsində sürəti 100 mbit/s-dək internet xidməti təqdim edir.

**ELAN**

Seyidov Mircavad Mirsəməd oğluna məxsus Dİ 019436 və Dİ 004027 nömrəli Ukrayna Mülki Müdafiyə Universitetinin diplomlarının qiymət cədvəlləri itdiyi üçün etibarsız sayılır.

# Vahid Ələkbərov bankının dərdinə dərman eləyə bilmir

## "Yelo Bank"ın hələ də mənfəətlə işləməməsinin pərdəarxası ortaya çıxdı

***Bu günlərdə məlum oldu ki, məşhur milyarder Vahid Ələkbərova məxsus ”Yelo Bank”ın gəlirləri artsa da, yüksək əməliyyat mənfəəti əldə etməsi mümkün olmur. Bunun səbəbi isə xərclərin də gəlirlərlə təxminən eyni tempdə artması, gəlirlərin və xərclərin, az qala, başabaş getməsidir.***

Bankın rəhbərliyi əvvəlki illərdə yüksək xərcləri rəqəmsallaşmaya keçid, yeni filialların açılması üzrə artan xərclər ilə əlaqələndirmişdi. Bankın hesabatından isə məlum olur ki, yüksək xərclər əsasən depozitlər üzrə faizlər və əməkhaqqı xərclərilə bağlıdır.

”Marja”nın məlumatına görə, Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlardan azad olmuş 4 milyon 555 min manatın hesabına ”Yelo Bank”ın mənfəəti 5 milyon 228 min manata yüksəlib.

2021-ci ildə ”Yelo Bank”ın xərcləri gəlirlərini üstələdiyindən 1 milyon 592 min manat əməliyyat zərəri yaranmışdı. Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlardan azad olmuş 13 milyon 326 min manatın hesabına bank 11 milyon 733 min manat xalis mənfəət açıqlamışdı.

Ötən il Bankın depozitlər üzrə xərcləri 11 milyon 422 min manat və ya 70,1% artaraq 27 milyon 711 milyon manata, əməkhaqqı üzrə xərcləri isə 8

Daha sonra banka Gürcüstan vətəndaşı Nikoloz Şurqaia sədr təyin olunub ki, o da bankın vəsaitlərini müxtəlif yollarla talayaraq mənimsəyib. Bəzi KİV-lərin bu barədə dəfələrlə yazmasına baxmayaraq, Vahid Ələkbərov və bankın idarəçiliyinə məsul və həmçinin bankın səhmdarı Marina Kulişova Valeryevna heç bir reaksiya verməyib.

Bankın idarə heyyətinin sədri Nikoloz Şurqaia banka təyin olunduğu ildən 2021-ci ilədək “Nikoil Bank”, yəni hazırkı “Yelo Bank”ın rüblük və illik hesabatları zərərlə yekunlaşıb.

Son iki ildə V.Ələkbərov bankın fəaliyyəti ilə daha yaxından maraqlanmağa başlayıb.



”Yelo Bank” ASC 2022-ci ili 5 milyon 228 min manat xalis mənfəət ilə başa vurub. Bank 2021-ci ili 11 milyon 733 min manat xalis mənfəət ilə bağlamışdı. ”Yelo Bank”ın xalis mənfəəti 2021-ci illə müqayisədə 2022-ci ildə 2,2 dəfə və ya 6 milyon 505 min manat azalıb.

2022-ci ildə ”Yelo Bank”ın cəmi əməliyyat gəlirləri (faiz və qeyri-faiz gəlirləri) 96 milyon 394 min manat təşkil edib. 2021-ci ildə Bankın əməliyyat gəlirləri 67 milyon 176 min manat təşkil etmişdi.

2022-ci ildə ”Yelo Bank”ın cəmi əməliyyat xərcləri (faiz və qeyri-faiz xərcləri) 95 milyon 722 min manat təşkil edib. 2021-ci ildə Bankın əməliyyat xərcləri 68 milyon 768 min manat təşkil etmişdi.

Ötən il ”Yelo Bank”ın xərcləri gəlirlərinin 99%-dən çoxunu sildiyindən əməliyyat mənfəəti cəmi 673 min manat təşkil edib.

milyon 750 min manat və ya 36,7% artaraq 32 milyon 557 min manata yüksəlib. ”Yelo Bank” yüksək əmanət faizləri təklif edən banklardan biridir. İqtisadi ədəbiyyata görə, faiz həm də riskin qiymətidir. Təklif edilən faizin yüksək olması riskin də yüksək olmasına işarədir.

Xatırladaq ki, Vahid Ələkbərova məxsus bank uzun illər faktiki olaraq talan edilib. Yerli media yazır ki, proses hələ 2005-ci ildən başlayıb. 12.5 il əvvəlki ”Nikoil” İKB-a sədrlik edən Vasiliy Xamaza adıçəkilən bankın 20 milyon manatını mənimsəməkdə ittiham olunmuşdu. 2017-ci ilin yarısına kimi banka sədrlik etmiş V.Xamaza Azərbaycanı tərk edib. Federal və beynəlxalq cinayət axtarışına verilən Xamaza 2018-ci ilin sentyabr ayında Moskva şəhərində hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb.

Gözləntilər belə idi ki, bu, ”Yelo Bank”ın axır ki, yüksək əməliyyat mənfəəti əldə etməsinə gətirib çıxaracaq. Lakin yazının əvvəlində də vurğuladığımız kimi, yüksək xərclər yüksək əməliyyat mənfəəti əldə etməsini mümkünsüzə çevirir. Bir sözlə, təxminlər reallaşmayıb.

Bundan başqa, ”Yelo Bank” 2022-ci ili 5,2 milyon manat xalis mənfəət ilə başa vursa belə həmin rəqəm də ürəkaçan sayıla bilməz. Məsələ ondadır ki, Ələkbərovun bankı 2021-ci ili 11 milyon 733 min manat xalis mənfəət ilə bağlamışdı. Deməli, ”Yelo Bank”ın xalis mənfəəti 2021-ci illə müqayisədə 2022-ci ildə 2,2 dəfə azalıb.

Bütün bunların fonunda Vahid Ələkbərovun qarşıdakı mərhələdə öz bankı ilə bağlı hansı addımlar atacağı maraq doğurur.

***Toğrul Əliyev***

**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ölüm hökmünün ləğvi insan hüquq və azadlıqlarının müdafiəsində ən mühüm addım oldu

## Zakir İbrahimov: "Törədilən cinayətlərə görə verilən hər cəza ədalətli olmaya bilər, amma ölüm hökmünün geriyə dönüşü yoxdur"



***Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində islahatlar uğurla davam edir. Bunlardan biri də Azərbaycanda ölüm cəzasının ləğvidir. Fevralın 10-da Azərbaycanda ölüm cəzasının ləğvindən 25 il ötür. 1998-ci ildə həm Şərqdə, həm də MDB məkanında ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edilib. Ölkəmizdə ölüm hökmünün ləğvinin təşəbbüskarı Ulu Öndər Heydər Əliyevdir. İnsanpərvərlik dəyərlərinin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarına hörmət hər zaman Ümumilli lider Heydər Əliyevin dövlət siyasətinin qayəsini təşkil edib. Məhz Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müstəqil dövlətimizin siyasətinin başlıca əsaslarından biri kimi humanizm ənənələrinin təməli qoyulub. Ölkəmizdə əfvetmə və amnistiya institutları təşəkkül taparaq ölüm cəzasının tətbiqinə moratorium qoyulubdur.***

Qobustan sakini Zakir İbrahimov ölüm hökmündən son anda xilas olunan keçmiş məhkumlardandır. O, Azərbaycanda ölüm hökmünün ləğvi ilə hər kəsin ən ali hüququ olan yaşamaq hüququnun bərpa olunduğunu bildirir. Deyir ki, Heydər Əliyevin bu nəcib təşəbbüsü neçə-neçə ölüm hökmü verilmiş məhkuma yenidən həyat bəxş edib. Həmsöhbətimiz bildirdi ki, buna görə hər zaman Heydər Əliyevin ruhuna rəhmət oxuyur: "Onun sayəsində Azərbaycanda ölüm hökmü ləğv edildi. Bu çox humanist qərar idi. Törədilən cinayətlərə görə verilən hər cəza ədalətli olmaya bilər. Amma ölüm hökmünün geriyə dönüşü yoxdur. 1998-ci illədək Azərbaycanda insan həyatı atılan bir imzadan asılı idi. Əgər hansısa hakim ədalətsiz qərar verib ölüm hökmünə imza atardısa, gələcəkdə o insanın cəzasız olduğunun sübuta yetirilməsi, yaxud da daha yüngül cəzaya layiq olduğunun sübut edilməsi heç nəyi dəyişmirdi. Çünki, ölüm hökmü geriyə dönüşü olmayan cəza idi".

Ölüm hökmü 15 il həbslə əvəzlənən Z. Bayramov 14 il 5 ay 25 gün cəza çəkdikdən sonra nəhayət ki, 1984-cü ildə azadlığa qovuşur. Digər ölümün caynağından xilas edilən keçmiş məhkumlar kimi o da bu qərarın səbəbkarı olan Ulu Öndər Heydər Əliyevi rəhmətlə anır.

Ədliyyə Nazirliyi yanında İctimai şuranın üzvü, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev Azərbaycanda ölüm hökmünün ləğvinin insan haqlarının müdafiəsi baxımından böyük uğur adlandırdı. Onun sözlərinə görə, yaşamaq hər bir insanın ən ali hüququdur. Bu hüququ heç kəs ondan ala bilməz: " Əlbəttə ki, insanın yaşamaq hüququnu onu öldürərək əlindən almaq olmaz. Buna baxmayaraq bir müddət ölkəmizdə cəza növü kimi ölüm hökmü tətbiq edilib. Nə yaxşı ki, Heydər Əliyevin təqdimatı ilə ölkəmizdə ölüm hökmü ləğv edilib".

Həmsöhbətimiz deyir ki, ölüm hökmü elə cəzadır ki, məhkəmə istintaqı zamanı hər hansı yol verilən səhvin sonradan düzəldilməsi, dəyişdirilməsi mümkün olmur. Onun sözlərinə görə, ölüm cəzasının ləğvi ədalətsiz qərarların üzərindən ölüm hökmlərinin icrasını da aradan qaldırmış oldu.

Ə. Nuriyev qeyd etdi ki, ölüm cəzasının ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənməsi həmin məhkumlara törətdikləri cinayət əməli ilə bağlı düşünmək, islah olunmaq imkanı verir: "Düşünürəm ki, bu, həm də ədalətli cəzalandırma üsuludur. Bundan böyük özünütərbiyə üsulu yoxdur. Ömürlük məhkumlar cəmiyyətdən ayrılsalar da, cəmiyyət onları görür, onların ömürlük azadlıqdan məhrum qalması digərləri üçün də bir növ dərs olur".

Şura üzvü bildirdi ki, yaşamaq hüququ fundamental hüquqdur. Bu hüquqdan heç kəsi məhrum etmək olmaz: "Ulu öndər Heydər Əliyev 1998-ci il yanvarın 22-də ölüm hökmünün ləğv olunması haqqında təşəbbüslə Milli Məclisə müraciətində cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirib. Milli Məclis dövlət başçısının ölüm hökmü ilə əlaqədar təklifini dəstəkləyib və 1998-ci il fevralın 10-da bu tarixi qərarı qəbul edib. Ölüm hökmünün ləğvi ilə Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşdü. Azərbaycanda ölüm hökmünün ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini, demokratik prinsiplərin inkişafına xüsusi önəm verildiyini bir daha təsdiqləyib. Ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addım olub".

Məlumat üçün bildirək ki, Cinayət Məcəlləsinin 57-ci maddəsinin tələbinə görə, ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrumetmənin ən azı 25 ilini həqiqətən çəkdiyini, onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq və məhkumun həmin cəzanı çəkməsinə daha lüzum olmadığı qənaətinə gəlinərsə, ömürlük azadlıqdan məhrumetmə cəzası 15 ilədək müddətə azadlıqdan məhrumetmə ilə əvəz edilə və ya o bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edilə bilər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Ərdoğan Heydər Əliyev Fondunun nümayəndələri ilə görüşdü

***Bu gün zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qaziantep hava limanında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişi əsasında qardaş ölkəyə humanitar yardım aparan Fond əməkdaşları ilə görüşüb.***

"Unikal" xəbər verir ki, baş vermiş faciə ilə əlaqədar Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın başsağlığını çatdıran Fondun nümayəndəsi Elvin Aslanov bu günlərdə bütün Azərbaycan xalqının, ölkənin bütün təşkilatlarının qardaş ölkə üçün zəruri yardımların göstərilməsi naminə səfərbər olduğunu bildirib.

Azərbaycan dövləti və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkür edən Rəcəb Tayyib Ərdoğan bildirib: "İlham qardaşıma, Mehriban bacıma öz adımdam, millətim adımdan çox təşəkkür edirəm!"

Azərbaycanda xalqın zəlzələ qurbanları üçün humanitar yardıma qoşulmasından, göndəriləcək yardımlar barədə məlumatlı olduğunu deyən Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycanın yanında olduğu kimi, indi də belə çətin gündə Azərbaycanın Türkiyənin yanında olduğunu bildirib: "Öz adımdam, ailəm və xalqımız adından minnətdarlıqlarımı çatdırıram. Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!".

# "Azərpoçt"un bütün şöbələrində Türkiyəyə yardım qəbuluna başlandı

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərpoçt" MMC Türkiyədə zəlzələdən zərərçəkənlər üçün Azərbaycanda başlanan genişmiqyaslı yardım kampaniyasına dəstək verir.***

"Unikal" xəbər verir ki, bu gündən "Azərpoçt"un bütün ölkə üzrə poçt şöbələrində yardımların qəbuluna və göndərilməsinə başlanılır. Göndərişlərə görə heç bir xidmət haqqı alınmır. Bununla belə bağlamaların qəbulu və qablaşdırılması adi poçt göndərişi qaydasında həyata keçirilir, yəni göndərilən mallar vətəndaşın iştirakı ilə siyahıya alınır və qablaşdırılır.

Vətəndaşlardan yardımların hazırlanması zamanı Türkiyə Daxili İşlər Nazirliyinin Təbii Fəlakət və Fövqəladə Hallar Agentliyinin (AFAD) qoyduğu tələblərə riayət etmələri xahiş olunur.

Nəzərinizə çatdıraq ki, istifadə olunmuş geyimlər və əşyalar gigiyenik şərtlər və epidemiya riski baxımından qəbul olunmur.

Bundan əlavə, tez xarab olan və daşınması mümkün olmayan məhsullar göndəriş üçün qəbul edilmir.

Yardım məqsədilə aşağıdakı geyim və əşyaların göndərilməsi tövsiyə olunur:

**Geyimlər**
**palto**
**plaş**
**papaq, şərf**
**əlcək**
**qış ayaqqabıları**
**isti üst geyimləri**
**alt paltarları**

**Digər əşyalar**
**çadır**
**döşək**
**yorğan**
**yastıq**
**termos**
**uşaq bezləri**
**əl fənəri**
**generator**




Qardaş Türkiyədə zəlzələdən xəsarət alanlara şəfa, dünyasını dəyişənlərə isə rəhmət diləyirik.

# Magistraturaya sənəd qəbulu başa çatır



***Qəbul imtahanında iştirak etmək üçün bakalavrların ərizələrinin qəbulu internet vasitəsi ilə aparılır. İmtahanda iştirak etmək üçün ərizələrin qəbulu yanvarın 24-dən başlayıb və 9 fevral saat 23:59-dək davam edəcək.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a verilən məlumata görə, 9 fevral saat 09.00-a olan məlumata əsasən, 17222 bakalavr (Azərbaycan bölməsi - 15799; rus bölməsi - 1423) ərizəsini təsdiq edib. Ərizələrini doldurmuş, lakin hələ təsdiq etməmiş (təqribən 125 nəfər), eləcə də digər bakalavrlar bu gün saat 23.59-dək elektron ərizələrini təsdiq edə bilərlər.

Sənəd qəbulunda iştirak etmək istəyənlər (şəxsi kabineti olmayanlar) ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra ərizə vermək üçün tələb olunan məbləği "Şəxsi kabinet"indəki hesabına əlavə edir. Hesaba məbləği əlavə etmək üçün ödəniş üsulları ilə epayment.dim.gov.az internet səhifəsində tanış ola bilərsiniz.

Bakalavr "Şəxsi kabinet"inin istifadəçi adı və parolundan istifadə etməklə aşağıdakı linkə daxil olub "Bakalavrın elektron ərizəsi" formasını doldurur və təsdiq edir.

İmtahan 2023-cü il fevralın 19-da keçiriləcək.

# BQXK-nin maşın karvanı Xankəndidən Laçına keçdi

***Xankəndi-Laçın yolunda Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus 4 avtomobilin hərəkət etməsinə şərait yaradılıb.***

"Unikal" xəbər verir ki, nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub. Belə ki, həmin minik avtomobilləri Xankəndidən Laçın istiqamətinə keçiblər.

Bu, bir daha göstərir ki, humanitar məqsədli maşınların keçidi üçün heç bir məhdudiyyət yoxdur.

Xatırladaq ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolundakı etiraz aksiyası 60 gündür davam edir.

# Sumqayıtda zəncirvari qəza olub, xəsarət alan var

***Sumqayıtda zəncirvari yol qəzası baş verib, 1 nəfər hamilə qadın xəsarət alıb.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, hadisə Sülh prospekti ilə Koroğlu prospektinin kəsişməsində baş verib.

Belə ki, "Mercedes" markalı 50-EH-724 dövlət nömrə nişanlı avtomobil yüksək sürətlə hərəkətdə olarkən işıqforda dayanan digər 3 avtomobilə çırpılıb. İlk dəydiyi "Opel" markalı 01-CE-467 dövlət qeydiyyat nişanlı avtomobildə olan hamilə qadın xəsarət alıb.

Qadın təcili yardım maşını ilə xəstəxanaya aparılıb.

Hər 4 avtomobilə ciddi ziyan dəyib.

# Ucarın kənd təsərrüatı üzrə 2022-ci ul statistik göstəricisi

***2023-cü ilin yanvar ayının 1-i vəziyyətinə iribuynuzlu mal-qaranın sayı 59273 baş, qoyun və keçilərin sayı 55569 baş olub. İribuynuzlu mal-qaranın sayının 33334 başını və ya 56,2 faizini inək və camışlar təşkil edir.***

2021-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 31 baş, qoyun və keçilərin sayı 37 baş, ana inək və camışların sayı isə 29 baş artıb. 2022-ci ilin yanvar-dekabr aylarında diri çəkidə 23018,0 ton ət, 66423,7 ton süd, 32625 min ədəd yumurta, 140,8 ton yun istehsal edilib.

2021-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə ət istehsalı 21,2 faiz və ya 4032,9 ton yumurta istehsalı 0,8 faiz və ya 255 min ədəd, yun istehsalı 2,0 faiz və ya 2,7 ton artmış, süd istehsalı isə 4,5 faiz və ya 3139,5 ton azalmışdır. Ət istehsalının 16651,9 tonu kənd təsərrüfatı müəssisələrinin, 6366,1 tonu isə ailə kəndli və ev təsərrüfatlarının payına düşüb.

*Ucar Rayon Statistika İdarəsinin rəis müavini*
*Şakir Qasımov*

# Heydər Əliyev Fondunun yardımı Türkiyəyə çatdı

***Fevralın 6-da Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə humanitar yardım göndərilib.***




Bu barədə "Unikal"a Heydər Əliyev Fondundan məlumat verilib.

Bildirilib ki, faciədən zərər çəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək və s. daxil olmaqla tibbi ləvazimat və avadanlıqlar, eləcə də isti geyimlər çatdıran xüsusi təyyarə bu gün Türkiyəyə eniş edib. Türkiyəyə ezam edilən Fond əməkdaşları zəlzələ bölgəsində faciədən zərər çəkmiş vətəndaşlara humanitar yardım çatdırıb.

"Qeyd edək ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva faciə ilə əlaqədar verdiyi başsağlığında Türkiyə xalqının kədərinin bizim kədərimiz olduğunu qeyd etmiş, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulamışdır.

Heydər Əliyev Fondu Türkiyə xalqının üzləşdiyi faciə zamanı həlak olanların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verir, yaralılara şəfa diləyir", - Fondun açıqlamasında vurğulanıb.

# Ağsuda və Balakında suvarma sistemi təkmilləşdirilir



***Balakəndə selə qarşı mübarizə tədbirləri görülür. Suvarma kanalına beton üzlük çəkilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Balakən Suvarma Sistemləri İdarəsi kənd təsərrüfatı bitkilərini suvarma suyu ilə təmin edir.***

Əkin sahələrində hər il müxtəlif təyinatlı kənd təsərrüfatı bitkiləri əkilir və onların suvarılması yerinə yetirilir. Suvarma dağ çaylarından gələn suların hesabına və 65 ədəd subartezian quyusu və eləcədə 90 artezian quyusu ilə aparılır. Rayonda 209 km-dən artıq uzunluğunda suvarma kanalları fəaliyyət göstərir. Ondan 40 km təsərrüfat arası kanallar, 169 km-i isə təsərrüfat daxili kanallardır. Suvarma suyu çaylardan suvarma kanallarına texnikaların köməyi ilə verilir. Su itkisinin qarşısını almaq üçün rayon ərazisində yerləşən torpaq məcralı kanallarda hər il beton işləri görülür.

Balakən Suvarma Sistemləri İdarəsi suvarma ilə yanaşı məcra təmizləmə və sahil bərkitmə işlərini də aparır. Bu məqsədlə də idarənin balansında cəmi 22828 metr uzunluqda bəndlər mövcuddur. Ondan 11911 metri Balakənçay sistemində, 4480 metri Katexçay sistemində, 6437 metri isə Mazımçay sistemindədir. Ötən il daş-beton bəndlərdə rayonun şəhər ərazisinin müdafiəsi üçün 200 kub metr həcmində, Mahamalar kəndinin müdafiəsi üçün 1250 kub metr, Katex kəndinin müdafiəsi üçün isə 750 kub metr həcmində cari təmir işləri yekunlaşıb. Silban kəndinin selsularından mühafizəsi üçün 100 metr uzunluğunda daş-beton bəndin əsaslı təmiri işləri hazırda davam edir.

Qeyd edək ki, Balakən Suvarma sistemləri İdarəsinin balansında 8400 hektar suvarılan torpaq sahəsi mövcuddur. Bundan 2252 hektar əkin sahəsi, 3778 hektarı həyətyanı və 2370 hektarı çoxillik əkmələrdir. Suvarma əsasən öz axını ilə həyata keçirilir.

Ağsu çayda baş su qəbuledici qurğu tikilib. Cavanşir gölündə təmir işləri aparılıb.Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Ağsu rayonunda meliorativ tədbirlər uğurla davam edir.

Suvarılmanın yaxşılaşdırılması üçün Ağsu rayonunun ərazisində yerləşən Qazanarx kanalı yenidən qurulub. Ağsu çayın məcrasında isə Baş Su Qəbuledici qurğu tikilib. Əvvəlki illərdə Ağsu çayından su götürmək üçün xeyli çətinliklər yaranırdı. Bu qurğunun tikintisindən sonra saniyədə 5 kub metr su götürmək üçün dəmir-beton kanal da çəkilib. Baş Su Qəbuledici qurğu bir-neçə hissədən ibarətdir. Qurğu çayın məcrasını ortadan su aşırımlı bənd vasitəsilə kəsir. Bu da suyun səviyyəsinin qaldırılmasına, eyni zamanda kanalların su götürməsinə kömək edir.

Qurğunun əsas üstünlüklərindən biri də çaya gələn sel sularının qarşısını almasıdır. Yekunlaşan işlər Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdriyyəti tərəfindən həyata keçirilib. Qazanarx kanalının əsas iş prinsiplərindən biri də suvarmanın aparılmadığı vaxtlarda Cavanşir gölünün su ilə doldurulmasına töhvə verməkdir. Bu məqsədlə Cavanşir gölündə təmir-bərpa işləri aparılıb.

Qeyd edək ki, Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdriyyəti tərəfindən Ağsu rayonu ilə yanaşı ölkənin Hacıqabul və Şamaxı rayonlarında yeni nasos stansiyalar tikilərək istifadəyə verilib.

***Hüseyn***

# Ötən il Astaranın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***İlkin hesablamalara görə Astara rayonunda fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən iqtisadiyyatın əsas sahələri üzrə (sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, tikinti, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, ticarət; nəqliyyat vasitələrinin təmiri) məhsul buraxılışı və xidmətlərin həcmi 2022-ci ildə əvvəlki illə müqayisədə 15,3 faiz artaraq 274384,3 min manat olub. İstehsal edilmiş məhsul və xidmətlərin rayon əhalisinin hər nəfərinə düşən dəyəri 2456,6 manat təşkil edib.***




Məhsul və xidmətlərin 40,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 27,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində, 11,3 faizi sənayedə, 18,0 faizi tikintidə, 2,3 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrində, 0,4 faizi isə informasiya və rabitə sahələrində istehsal olunub.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2022-ci ildə 31142,5 min manatlıq və ya 2021-ci illə müqayisədə 10,1 faiz az sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 27,4 faizi emal sektorunda, 71,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 27,4 faiz olub.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 8,6 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 1,6 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 yanvar 2023-cü il vəziyyətinə 542,3 min manatlıq hazır məhsul olmuşdur.

Kənd təsərrüfatında bitkiçilik məhsullarının yığımı başa çatmışdır. 2022-ci ildə dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) 642 hektar əkin sahəsindən 1844 ton və ya 2021-ci illə müqayisədə 15,0 faiz az məhsul götürülmüşdür. Orta hesabla hər hektardan 28,7 sentner məhsul yığılmışdır. Bundan əlavə 188 hektar dən üçün qarğıdalı sahəsindən 588,8 ton məhsul toplanmış, hər hektardan orta hesabla 31,3 sentner qarğıdalı dəni götürülmüşdür.

2022-ci ildə 29099,4 ton (1,2 faiz çox) tərəvəz, 7843,6 ton və ya əvvəlki ilə nisbətən 3,4 faiz çox kartof, 4134,6 bostan məhsulları, 61765,7 ton (10,2 faiz çox) meyvə və giləmeyvə, 662,5 ton (16,0 faiz az) yaşıl çay yarpağı yığılmışdır.

2022-ci ildə 3996,0 ton, yaxud əvvəlki ilə nisbətən 0,7 faiz çox diri çəkidə ət, 27896,0 ton (1,0 faiz çox) süd, 11440,0 min ədəd (0,1 faiz çox) yumurta, 28,2 ton (0,7 faiz çox) yun istehsal olunmuşdur.

2023-cü il yanvarın 1-i vəziyyətinə rayon üzrə 40375 baş iribuynuzlu mal-qara, 21308 baş qoyun və keçi mövcud olmuşdur. 2022-ci il yanvarın 1-nə nisbətən iribuynuzlu mal-qaranın sayı 336 baş (0,8 faiz), qoyun və keçilərin sayı 89 baş (0,4faiz) azalmışdır.

2021-ci illə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 6,6 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 15,0 faiz artmış, heyvandarlıq məhsulları istehsalı isə 2,0 faiz azalmışdır.

2023-cü ilin məhsulu üçün 133 hektar sahəyə dən üçün payızlıq taxıl səpilmişdir. Dənlik taxılın 86,7 faizi və ya 115,3 hektarı buğda, 13,3 faizi və ya 17,7 hektarı arpa əkini sahəsidir. Əvvəlki ilə nisbətən dən üçün taxılın əkin sahəsi 2,3 dəfə, o cümlədən buğdanın əkin sahəsi 2,6 dəfə , arpanın əkin sahəsi isə 28,3 faiz artmışdır.

2022-ci ildə əsas kapitala 54691,1 min manat məbləğində, yaxud 2021-ci illə müqayisədə 97,5 faiz çox vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 49296,6 min manatı və ya 90,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. 2022-ci ildə Astara rayonunda ümumi sahəsi 8186 kv.m olan 78 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən il ərzində 1026 min ton yük və 5931 min nəfər sərnişin daşınmışdır. Əvvəlki illə müqayisədə yük daşınması 12,4 faiz, sərnişin daşınması isə 25,8 faiz artmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən 1208,1 min manatlıq xidmətlərin 86,7 faizi əhali sektoruna aid olmuşdur. 2021-ci illə müqayisədə 2022-ci ildə informasiya və rabitə xidmətlərinin dəyəri 5,0 faiz artmışdır.

2022-ci ildə pərakəndə ticarət şəbəkəsindən əhaliyə 238233,1 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 31739,7 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2021-ci illə müqayisədə əmtəə dövriyyəsi 1,8 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 6,0 faiz artmışdır.Bu dövrdə pərakəndə ticarət şəbəkəsində əhaliyə 97617,4 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 140615,7 min manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

2022-ci ildə istehlak qiymətləri indeksi 2021-ci illə müqayisədə 115,6 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 123,5 faiz, qeyri-ərzaq malları üzrə 110,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 108,1 faiz təşkil etmişdir.

2022-ci ilin yanvar-noyabr aylarında muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 2021-ci illə müqayisədə 20,8 faiz artaraq 530,4 manat təşkil etmişdir.

***Astara Rayon Statistika İdarəsinin rəisi Vasif Həsənov***



# Vətənin qəhrəmanlıq tarixinə yazılan ad

***İkinci Qarabağ müharibəsində doğma Azərbaycanımızın bütövlüyünü canından əziz bilən Vətən sevdalılardan bir də Qüdrət Tofiq oğlu Məmmədzadədir. 19 yaşında şəhidlik zirvəsinə ucalan, adını tarixə yazan ölməz qəhrəmanımız Lənkəran rayonunun Sütəmurdov kəndində boya-başa çatmışdı. O, orta məktəbi bitirib müstəqil həyata qədəm qoyanda yağı düşmənin əsir etdiyi Vətən torpaqların azadlığı onun birinci arzusuna dönür. Odur ki, 1oktyabr 2019-cu ildə ordu sıralarına yola düşəndə başına yığışan qohum-qonşuya deyir:" Artıq dığaların sonu çatıb, Vətən qeyrətli oğullarını qisasa çağırır. Mən döyüş meydanında yurduma dadanmış düşməni öldürməyə gedirəm. Həm də işğal altında olan əzəli yurd yerimiz- Qarabağımız azad olmamış silahımı yerə qoymaram".***

Qüdrət Məmmədzadənin əsgərlik həyat Qarabağın qaynar bölgəsində başlanır. Bütün varlığı ilə bağlandığı, müqəddəsliyinə tapındığı Vətənə ləyaqətlə xidmət edir, təlim məşqlərdə fərqlənir və düşməndən tam alacağı öcün gəlişini böyük inamla gözləyir. Yeri düşəndə bu yolda şəhid olmağı şərəf sayır.

Nəhayət, Qüdrət 2020-ci il sentyabrın 27-də istəyinə çatır. Əlinə silah alıb erməni dığalarına qarşı müharibəyə girir. İştirak etdiyi gərgin döyüşlərdə cəsurluq, igidlik, mərdlik göstərməklə düşməni çoxsaylı itkilərə məruz qoyur. Beli qırılan dığalardan Vətən torpaqları təmizləndikcə Qüdrət odun-alovun içinə daha ürəklə atılır. Həm də mübarizə meydanında qəhrəmanlığı onunla çiyin-çiyinə vuruşduğu silahdaşlarının qələbə əzminə yeni ruh verir.

Döyüşdən-döyüşə bərkiyən igid əsgərin oktyabrın 16-da Goranboy rayonu Tapqaraqoyunlu kəndi istiqamətində gedən şiddətli döyüşdə cəhənnəmə vasil etdiyi dığaların sayı bilinmir. O, yaşının çərçivəsinə sığmayan bir qəhrəmanlıqla sözün əsl mənasında, tarix yazır. Təəssüf ki, özü də qəfil atılan yağı gülləsinə tuş gəlir. Vətənlə bir döyünən qəlbi dayanır, əbədiyyətə qovuşur.

Beləcə, hər bir azərbaycanlının ürəyində özünə taxt-tac quran, qeyrət zirvəsində dayanan Qüdrət Məmmədzadə həm də ölümündən sonra "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medallarına layiq görülür.

Qüdrət Məmmədzadə bu dünyadan vaxtsız getsə də, onun Vətəni necə sevməyi, halal torpağı uğrunda necə can verməyi tarixə yazılaraq gələn nəsillərə yadigar qaldı. Lənkəran camaatı həmişə öz qəhrəman oğlunun adını iftixarla çəkir. Adını daşıdığı küçədə xatirəsinə bulaq kompleksi ucaldılıb.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Erməni deputatın toxunulmazlığı əlindən alındı



***Ermənistan Parlamenti fevralın 9-da müxalifət "Ermənistan" fraksiyasının üzvü Armen Çarçyanı deputat toxunulmazlığından məhrum edib.***

"Unikal" xəbər verir ki, baş prokurorun vəsatətinin təmin edilməsinin lehinə 67 deputat səs verib.

Prokurorluq "İzmirlyan" Tibb Mərkəzinin keçmiş direktoru Armen Çarçyanı 2017-ci ildə saxta tibbi rəy verdiyinə görə toxunulmazlığını əlindən alıb.

Ötən gün sözegedən fraksiyanın rəhbəri, keçmiş müdafiə naziri Seyran Ohanyanın da toxunulmazlığı götürülüb.

***Ağarza***

# "Putin diplomatiyaya maraq göstərmir" - Blinken



***Rusiya işğalçıları Ukraynadakı döyüş meydanında heyrətamiz itkilər verirlər. Bu müharibə Rusiya prezidenti Vladimir Putin üçün strateji uğursuzluq olaraq qalır.***

"Unikal" xəbər verir ki, bunu ABŞ-ın dövlət katibi Entoni Blinken NATO-nun baş katibi Yens Stoltenberqlə birgə brifinq zamanı deyib.

Onun sözlərinə görə, Kreml rəhbəri nə Ukraynanı tuta, nə də ukraynalıların iradəsini qıra bildi.

"Ukraynaya qarşı müharibə prezident Putinin strateji uğursuzluğu olmaqda davam edir. O, Ukraynanın demokratik yolla seçilmiş hökumətini devirə bilmədi, Ukraynanı Rusiyaya birləşdirə bilmədi və ya xalqın iradəsini qıra bilmədi. O, Kiyev, Xarkov uğrunda döyüşlərdə məğlub oldu. Onun ordusu meydanda heyrətamiz itkilər verir,"- Blinken bildirib.

# Makron Zelenskiyə "Fəxri Legion" ordeni verdi

***Fransa prezidenti Emmanuel Makron Ukrayna lideri Volodimir Zelenskini "Fəxri Legion" ordeni ilə təltif edib.***

"Unikal" xəbər verir ki, bu barədə Fransa rəhbəri "Twitter" hesabında məlumat yayıb. "Ukraynaya və onun xalqına ehtiram. Hörmətli Vladimir, cəsarətinizə və sədaqətinizə görə sizə hörmət edirəm", - siyasətçi deyib. "Fəxri Legion" Fransanın ən yüksək səviyyəli mükafatıdır. Bu fərqlənmə yalnız hərbi və ya mülki xidmətə görə respublika prezidenti tərəfindən verilə bilər. Xatırladaq ki, Zelenski fevralın 8-də Fransaya səfər edib.

***Ağarza Elçinoğlu***

# "Putinin heç bir şansı yoxdur" - Bayden

***Rusiya Federasiyasının prezidenti Vladimir Putin "artıq Ukraynanı itirib".***

"Unikal" xəbər verir ki, bunu ABŞ prezidenti Co Bayden "PBS NewsHour"a müsahibəsində bildirib.

"Putinin heç bir şansı yoxdur - o, artıq Ukraynanı itirib. Düşünürdü ki, əgər rus qoşunları Ukraynaya soxulsa, ilk növbədə, ukraynalılar onları qarşılayacaq və deyəcək: "Gir, içəri". İkincisi, o inanırdı ki, NATO dağılacaq, NATO heç nə etməyəcək, hərəkətə keçməkdən qorxacaqlar... Bunların heç biri baş vermdi", - deyə Bayden vurğulayıb.

# Parlament Türkiyədə fövqəladə vəziyyət rejimini TƏSDİQLƏDİ

***Türkiyədə fövqəladə vəziyyət rejimi Türkiyə Böyük Millət məclisində qəbul edildi.***

"Unikal" bu barədə Türkiyə KİV-nə istinadən xəbər verir.

Qeyd edilib ki, Türkiyədə zəlzələ olan bölgələrdə 3 ay müddətinə fövqəladə vəziyyət rejimi olacaq.

# "London Bəyannaməsi" imzalandı - Ukraynaya uzaq mənzilli raketlər veriləcək

***Ukrayna prezidenti Volodimir Zelenski Böyük Britaniyanın baş naziri Rişi Sunak ilə birlikdə Kiyev və London arasında tərəfdaşlığın dərinləşdirilməsinə yönəlmiş "London Bəyannaməsi"ni imzalayıblar.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Böyük Britaniya artıq Ukraynaya demək olar ki, dörd milyard funt-sterlinq hərbi, humanitar və iqtisadi dəstək verib. Bu da həcm baxımından ABŞ-dan sonra ikinci yerdədir.

Britaniya tərəfi bu dəstəyi davam etdirməyə, Ukraynanın enerji sisteminin və digər mülki infrastrukturun bərpasına kömək etməyə, habelə Rusiyaya qarşı sanksiyalar təzyiqini davam etdirməyə, o cümlədən dondurulmuş Rusiya aktivlərindən Ukraynanın xeyrinə istifadə etməyə sadiqdir.

"Biz əminik ki, müttəfiqlərimiz və tərəfdaşlarımızla birlikdə Rusiyanın qeyri-qanuni və əsassız işğalını məğlub edəcəyik və sülh və firavanlığın hökm sürəcəyi güclü Ukrayna quracağıq", - deyə "London Bəyannaməsi"ndə qeyd edilib.

Bundan əlavə, Ukrayna və Böyük Britaniya uzaq mənzilli silahların tədarükü ilə bağlı razılığa gəliblər.

"Bizim Böyük Britaniyadan güclü müdafiə paketimiz var. Biz güclü miqdarda zirehli texnika, uzaq mənzilli silahların tədarükü barədə razılığa gəldik və ukraynalı pilotların təliminə başlamağa razılaşdıq", - Zelenski açıqlayıb.

***Ağarza Elçinoğlu***

# "Bu, erməni qadınlar üçün yeni bir səhifədir" - Paşinyan

***Qadınlara könüllülük əsasında 6 ay müvəqqəti hərbi xidmət keçməsinə imkan yaradacağıq, bundan sonra onlar da "Vətəndaşın müdafiəçisi" məntiqi ilə daha uzunmüddətli hərbi xidmət keçə bilərlər.***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

Müdafiə naziri Suren Papikyana müraciət edən Paşinyan 6 aylıq hərbi xidmət üçün ərizə yaza biləcəklərini soruşub.

"Qış çağırışına düşmək üçün hər şeyi edəcəyik, yay çağırışına keçib-keçməyəcəyimizi demək çətindir, hər şey sürətimizdən asılıdır", - Papikyan bildirib.

Paşinyan cavabında "Qadınlarımız üçün yeni və təzə infrastrukturlara malik olmağı qarşımıza vəzifə qoymuşuq ki, prosesə yeni məzmun və təravətlə başlaya bilək, bu, onlar üçün yeni səhifədir", - deyə bildirib.

***Gülayə Mecid***

# Tayvan prezidenti maaşını Türkiyəyə bağışlayacaq

***Tayvan prezidenti Tsai İnqven və vitse-prezident Uilyam Lai aylıq maaşlarını Türkiyəyə bağışlayacaqlarını bildiriblər.***



"Unikal" BBC-yə istinadən xəbər verir ki, bu, zəlzələdən zərərçəkənlərə maddi yardım olaraq veriləcək.

"Tayvan Türkiyəyə ölkənin yenidən qurulmasına kömək etmək üçün üzərinə düşəni etməyə hazırdır", - deyə bəyanatda deyilib.

Tayvan daha əvvəl Türkiyəyə 2 milyon dollar yardım və axtarış-xilasetmə işləri üçün iki qrup göndərib. Tayvan komandasının rəhbəri Huanq Po Çun xatırladıb ki, 1999-cu ildə Tayvanda baş verən zəlzələdən sonra Türkiyədən onlara kömək etmək üçün komandalar gəlib.

Çun Türkiyəyə göstərdikləri köməyə görə təşəkkür edərək, "İndi gəldik. 1999-cu ilin təşəkkürü olaraq buradayıq. Axtarış-xilasetmə işlərini türk qrupları sayəsində öyrəndik"., - deyə vurğulayıb.

***Gülayə Mecid***

# "Qəbələ"nin sabiq məşqçisi də dağıntılar altında qalıb



***2009-2015-ci illərdə "Qəbələ" Futbol Akademiyasında qapıçı məşqçisi işləyən Uğur Kurt Türkiyədəki zəlzələ zamanı dağıntılar altında qalıb.***

"Unikal" msport.az-a istinadən xəbər verir ki, "İskenderunspor" klubunda çalışan 53 yaşlı mütəxəssis zəlzələ olan vaxt klubun məşqçilər üçün ayrılmış binasında olub. "İskenderunspor" klubunun digər məşqçisi Halil İbrahim Sönmez dağıntılar altından çıxarılsa da, Uğur Kurtdan hələ də bir xəbər yoxdur. Qeyd edək ki, "Qəbələ"nin sabiq məşqçisinin dünən çantası tapılıb.

"İskenderunspor" klubunun qapıçısı Berk Balaban Türkiyə mətbuatına hadisəni belə təsəvvür edib: "İlk böyük təkan olduğunda bizim sol tərəfimizdə Uğur Kurt və Halil İbrahim Sönmez hocamızın qaldığı bina çökmüşdü. Biz binanın sadəcə toz dumanını görə bildik.

Uğur və İbrahim hocamızın dağıntıların altında olduğunu bilirdik. Əvvəlcə qışqırdıq-bağırdıq, səs gələcəkmi deyə. 1,5 saatdan sonra İbrahim hocamızın səsini eşitmişlər. Gecə saat 3-də özümüz onu çıxara bildik. Vəziyyəti pis idi, aldığım xəbərə görə, təəssüf ki, vəfat etdi. Uğur hocamızdan hələ xəbər ala bilmirik. Xilasedicilər dünən səhər gəlmişdilər. Ondan əvvəl heç bir yardım yox idi. Artıq xeyli vaxt oldu, amma gözəl xəbərlərini gözləyirik".

"Qəbələ"nin baş meneceri Nail Kərimov bizimlə söhbətdə hadisədən xəbərdar olduqlarını, möcüzə gözlədiklərini deyib.

Xatırladaq ki, Uğur Kurt "Zeytinburnuspor" (2004), "Qalatasaray" (2006), "Sarıyer" (2015), "Boluspor" (2016), "Karagümrük" (2016), "Manisaspor" (2017), "İstanbulspor" (2018), "Başakşehir" (2022) klublarında da fəaliyyət göstərib.

# Avropa Superliqasının yeni formatı açıqlandı

***Avropa Superliqasının təşkilatçıları - "Barselona", "Real" və "Yuventus" Avropa Superliqasını bərpa etməyə hazırlaşırlar.***

Avropa Superliqasına təşkilatçılıq və sponsor cəlbi ilə məşğul olan A22 şirkətinin baş direktoru Bernd Reyxart "Die Welt" nəşrinə müsahibəsində təsisçi klubların layihənin yeni versiyasını işə salmaq istədiyini açıqlayıb.

A22 şirkəti ötən ilin oktyabr ayından etibarən 50-dək Avropa klubu ilə məsləhətləşmələr aparıb. Həmin vaxtdan indiyədək gedən çalışma prosesinə əsasən turnirin yeni formatda təşkili qərara alınıb.

Avropa Superliqasının yeni versiyasına görə, yarışda daimi üzvlər olmayacaq, 60-80 iştirakçı komandadan ən az 2-3 divizion yaradılacaq. Hər bir komanda mövsümdə ən azı 14 oyun keçirəcək. Hələlik klubların bölgüsü ilə bağlı təfərrüatlar açıqlanmayıb. Turnirdən kənarlaşdırma sisteminin necə olacağı da məlum deyil.




Avropa Superliqasının yenilənmiş formatına əsasən, 3 yaradıcı klub belə ("Real", "Barselona", "Yuventus") aşağı liqaya düşə bilər. İştirak edəcək hər bir klub güclü maddi vəsait qazanmaq fürsəti əldə edəcək. Bu gəlir UEFA-nın avrokuboklarda verdiyi vəsaitdən daha çox olacaq.

Superliqanı 2024/25 mövsümündə başlatmaq nəzərdə tutulur.

Qeyd edək ki, UEFA daha əvvəl bir neçə dəfə bu yarışı tanımayacağını və orada iştirak edəcək klubları öz bayrağı altından təşkil olunan turnirlərdən uzaqlaşdıracağını elan edib.

Xatırladaq ki, 2021-ci ildə aprelin 18-də "Mançester Yunayted", "Mançester Siti", "Arsenal", "Liverpul", "Tottenhem", "Çelsi" (hamısı İngiltərə), "Real", "Barselona", "Atletiko" (hamısı İspaniya), "Yuventus", "Milan" və "İnter" (hamısı İtaliya) klubları Avropa Superliqasını yaratdıqlarını açıqlamışdılar. UEFA-nın xəbərdarlığından sonra "Real", "Barselona" və "Yuventus"dan başqa digər klubun turniri tərk etməsi ilə Avropa Superliqası layihəsinin başlaması təxirə salınıb. Lakin bir müddət əvvəl yenidən sözgedən klublar layihəni gündəmə gətiriblər.



## "Neftçi"nin dili qatlanan futbolçusunun son durumu - Açıqlama

***Birinci divizionun 16-cı turu çərçivəsində fevralın 8-də keçirilən Neftçi-2" - "Mingəçevir" matçının 71-ci dəqiqəsində dili qatlanmış Bakı klubunun futbolçusu Həbib İsmayılovun durumuna aydınlıq gəlib.***

Qol.az xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Gənc futbolçu müayinədən keçib. "Neftçi-2"-nin həkimi Famil Şıxəliyev klubun rəsmi saytına açıqlamasında bu barədə məlumat verib: "Futbolçumuz Həbib İsmayılovun çənə sümüyünün KT-si nəticəsində zərbədən sonra əmələ gəlmiş sümük kontuziyası mövcuddur. Boyun nahiyəsinin KT-sində heç bir zədə əlaməti müəyyən olunmayıb. Onun heç bir həyatı təhlükəsi olmadığı müəyyən edilib. Həbib 24 saat həkim nəzarətində (müalicə olunduğu hospitalda - red.) qaldıqdan sonra bu gün evə buraxılacaq".

## "Çelsi" və PSJ-nin təkliflərini rədd etdi

***Dortmund "Borussiya"sının futbolçusu Cud Bellinqhem "Çelsi" və PSJ-yə keçməkdən imtina edib.***

Qol.az xəbər verir ki, bu barədə Almaniya mətbuatı məlumat yayıb. 19 yaşlı yarımmüdafiəçi artıq adıçəkilən klubların rəsmi təkliflərini rədd edib.

Bildirilir ki, Bellinqem prixoloji olaraq bərbad vəziyyətdədir. İngiltərəli futbolçu karyerasını harada davam etdirəcəyini bilmir. Bununla belə, o, Fransa çempionatına keçmək istəmədiyinə əmindir. Belinqemin "Çelsi"dən imtina etməsinin səbəbi isə "zadəganlar"ın gərgin transfer kampaniyası və klubun qeyri-müəyyən gələcəyidir.

Qeyd edək ki, Bellinqem bu mövsüm "Borussiya"nın heyətində 23 oyunda 10 qol vurub və 4 qolun ötürməsini verib.

## Bədən Tərbiyəsi və İdman Akademiyasında görüş

***Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin tabeliyində olan Milli Müdafiə Universitetinin rəhbər şəxsləri ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ASAPES) görüş keçirilib.***

"Unikal" xəbər verir ki, əvvəlcə Akademiyanın Tədris və elmi işlər üzrə prorektoru Təhminə Tağı-zadə qonaqları Elmi-tədris laboratoriyası və Multimedia Mərkəzi ilə tanış edərək hər iki mərkəzin fəaliyyət istiqaməti barədə məlumat verib.

Konfrans zalında keçirilən görüşdə ASAPES-in Tədris və elmi işlər üzrə prorektoru Təhminə Tağı-zadə, Maliyyə, təsərrüfat və inzibati işlər üzrə prorektor Rizvan Əliyev, Elmi katib Bəxtiyar Rüstəmov, Hərbi elmi-tədqiqat İnstitutunun rektoru, polkovnik Arif Həsənov və akademik heyət iştirak edib.

Görüş zamanı Akademiyada həyata keçirilən tədbirlər və layihələr, Elmi-tədris laboratoriyasının iş fəaliyyəti ilə bağlı müzakirələr aparılıb. Bu müzakirələr çərçivəsində Akademiyanın fəaliyyət istiqamətləri üzrə gələcəkdə işbirliyinin qurulması və inkişafı məqsədilə əməkdaşlıq haqqında ikitərəfli Memorandumun imzalanması da nəzərdə tutulan iş planına daxil edilib.